"Finoko" BOKT ASC nin 2019 cu il üzrə illik idarəetmə hesabatının tərkibi aşağıdakılardan ibarətdir

1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi	"FİNOKO" Bank Olmayan Kredit Təşkilatı Açıq Səhmdar Cəmiyyəti, FİNOKO" BOKT ASC VÖEN:1402771411, 11.03.2014-cü il tarixli 1402771411 №-li qeydiyyat haqqında şəhadətnamə (Azərbaycan Respublikası Vergilər Nazirliyi)
2. Emitentin hüquqi ünvanı və olduğu yer	Faktiki ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, C.Cabbarlı 609 (Globus Center- 9cu mərtəbə)
3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları	Emitentin fəaliyyət göstərdiyi müddət ərzində adında və təşkilatı-hüquqi formasında heç bir dəyişiklik olmamışdır
4. Emitentin hesabat dövrü ərzində yranmış və ləvğ edilmiş filiallarə və nümayəndəlikərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumat	2019 cu ilin 4 cü rübündə təşkilatın 4 cü filialı Ekspress Göyçay filialı açılmışdır. Filial Azərbaycan Respublikası, Göyçay şəhəri, Atatürk küçəsi, 48A ünvanında fəaliyyət göstərir
5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti	Emitentin fəaliyyət göstərdiyi müddət ərzində heç bir törəmə cəmiyyəti nə yaradılmış nə də ləvğ edilmişdir
6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı	Emitent şirkətlər qrupuna daxil deyil

7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri	Kreditlər vermək
8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri	**Lisenziyanın verdiyi fəaliyyət növü:** Kreditin verilməsi. **Lisenziyanın qeydiyyat nömrəsi:** 28 **Lisenziyanın verilmə tarixi:** 18 Sentyabr 2014-cü il **Lisenziyanın qüvvədə olma müddəti:** Müddətsiz **Lisenziyanı veran orqanın adı:** Azərbaycan Respublikası Mərkəzi Bankı
9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər;	Biznes kreditləri, istehlak kreditləri, SKMF nun və AKİA nın vəsaiti hesabına verilən kreditlər
10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası	2018 – ci ilin sonuna işçi sayı 47 nəfər 2019 cu ilin 1 ci rübünə işçi sayı – 51 nəfər 2019 cu ilin 2 ci rübün sonuna isə - 53 nəfər 2019 cu ilin sonuna – 65 nəfər
11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı	**Emitentin Müşahidə Şurasının üzvləri** Əliyev Elçin Rəşid oğlu - MŞ-nın Sədri Əliyev Elmar Rəşid oğlu - MŞ-nın üzvü Əliyev Azər Əmiraslan oğlu - MŞ-nın üzvü
12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı	**Fiziki şəhslər:** Əliyev Elçin Rəşid oğlu: 242 750 səhm Əliyev Elmar Rəşid oğlu: 242 750 səhm
13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı	**Tam adı:** Əliyev Elçin Rəşid oğlu ; **Emitentin nizamnamə kapitalında payı:** 242 750 adi səhm (50%) **Emitentdə tutduğu vəzifə:** Müşahidə Şurasının Sədri **Tam adı:** Əliyev Elmar Rəşid oğlu ; **Emitentin nizamnamə kapitalında payı:** 242 750 adi səhm (50%). **Emitentdə tutduğu vəzifə:** Müşahidə Şurasının üzvü
14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı)	Yoxdur
15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:	1) 01.02.2019 cu il tarixində nizamnamə kapitalının 1000 000 manatdan 2 255 000 manata artırılması 2) 18.04.2019 cu il tarixində Azərbaycan Respublikası Prezidentinin 28.02.2019 cu il tarixli Fərmanı ilə əlaqədar kredit borclarının devalvasiya ilə əlaqədar manatla artmış hissəsinin MBNP tərəfindən təqdim edilmiş siyahıya əsasən müştərilərin ödəniş müddəti keçmiş əsas kredit

	borclarına yönəldilən hissə üzrə silinmələrin həyata keçirilməsi 3) 13.05.2019 cu il tarixində təşkilatın hüquqi ünvanının dəyişilməsi ilə əlaqədar 4) 20.05.2019 cu il tarixində nizamnamə kapitalının 2 255 000 manatdan 4 855 000 manata artırılması
16. Yığıncağın keçirilmə tarixi və yeri (ünvan)	1 ci iclas 01.02.19 tarixində C.Cabbarlı 609, Globus Center 9 cu mərtəbə 2 ci iclas 18.04.19 tarixində C.Cabbarlı 609, Globus Center 9 cu mərtəbə 3 cü iclas 13.05.2019 tarixində C.Cabbarlı 609, Globus Center 9 cu mərtəbə 4 cü iclas 20.05.2019 tarixində C.Cabbarlı 609, Globus Center 9 cu mərtəbə
17. Ümumi yığıncaqda qəbul edilmiş qərarlar.	• 01.02.19 tarixində keçirilən iclasda Nizamnamə kapitalı 1000 000 manatdan 2 255 000 manata artırılması qərarı verilmişdir • 18.04.2019 tarixində keçirilən iclasda devalvasiya ilə əlaqədar manatla artmış hissəsinin MBNP tərəfindən təqdim edilmiş siyahıya əsasən müştərilərin ödəniş müddəti keçmiş əsas kredit borclarına yönəldilən hissə üzrə silinmələr • 13.05.2019 tarixində keçirilən iclasda təşkilatın hüquqi ünvanı Cəfər Cabbarlı 609, Globus Center 9 cu mərtəbəyə dəyişdirilmişdir. • 20.05.2019 tarixində keçirilən iclasda nizamnamə kapitalı 2 255 000 manatdan 4 855 000 manata artırılması qərarı verilmişdir
18. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):	1) 05.05.2015 ci il tarixli AZ1001019467 saylı qeydiyyat nömrəsi ilə qeydiyyatdan keçən hər birinin nominal dəyəri 10 manat olan 70 000 ədəd sənədsiz adlı adi səhm 2) 12.02.2019 cu il tarixli AZ1001019467 saylı qeydiyyat nömrəsi ilə qeydiyyatdan keçən hər birinin nominal dəyəri 10 manat olan 125 500 ədəd sənədsiz adlı adi səhm 3) 04.06.2019 cu il tarixli AZ1001019467 saylı qeydiyyat nömrəsi ilə qeydiyyatdan keçən hər birinin nominal dəyəri 10 manat olan 260 000 ədəd sənədsiz adlı adi səhm
19. İnvestisiya qiymətli kağızın növü və forması	Sənədsiz adlı adi səhm
20. İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi	05.05.2015 – AZ1001019467 12.02.2019 – AZ1001019467 04.06.2019 – AZ1001019467 19.09.2019 - AZ2004019462
21. İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;	05.05.2015 – AZ1001019467- 70 000 ədəd, nominal 10 manat 12.02.2019 – AZ1001019467 – 125 500 ədəd, nominal 10 manat 04.06.2019 – AZ1001019467 – 260 000 ədəd, nominal 10 manat 19.09.2019 – AZ2004019462 – 1000 ədəd, nominal 1000 USD

22. İnvestisiya qiymətli kağızlar buraxılışınıın məcmu nominal dəyəri	31.07.2019 cu il tarixli Qiy1mətli Kağızların Dövlət reyestrindən yekun çıxarışa əsasən AZ1001019467 saylı qeydiyyat nömrəsi üzrə hər birinin nominal dəyəri 10 manat olmaqla cəmi səhm sayı 485 500 ədəd təşkil edir.
23. Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir)	Təsis etdiyi tarixdən səhmlər üzrə dividend ödənilməyib
24. Faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi	2019 cu ilin ikinci yarım illiyində nominal dəyəri 1000 USD olan 1000 ədəddə illik gəlirliyi 9% olan diskont istiqraz emissiya edilmişdir. İstiqrazlar 19.09.2019 cu il tarixində AZ2004019462 saylı reyestr nömrəsi ilə qeydiyyatdan keçmişdir.
25. İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda)	2019 cu ilin 1 ci yarımilliyi üzrə olan səhmlər Milli Depozit Mərkəzinin vasitəsi ilə qeydiyyatdan keçmişdir. 2019 cu ilin 2 ci yarımilliyi üzrə olan diskont istiqrazlar Milli Depozit Mərkəzinin vasitəsi ilə qeydiyyatdan keçmişdir.
26. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:	Olmayıb
27. Əqdin məbləği	Olmayıb
28. Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi	Olmayıb
29. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar	Olmayıb
30. Bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği	----------
31. Aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi	Əliyev Elçin Rəşid oğlu - MŞ-nın Sədri Əliyev Elmar Rəşid oğlu - MŞ-nın üzvü Əliyev Azər Əmiraslan oğlu - MŞ-nın üzvü İsmayılov Turan Mübariz oğlu - Direktor
32. illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi;	2020 ci ilin may ayının 15 də keçirilmişdir
33. hesabatın açıqlanma mənbəyi haqqında məlumat.	Finoko BOKT ASC nin rəsmi internet səhifəsində. www.finoko.com

Finoko BOKT ASC nin direktoru
T.M.İsmayılov

"FINOKO" Bank Olmayan Kredit Təşkilatı Açıq Səhmdar Cəmiyyəti
FINOKO
Kreditlər: tez və əlçatan

RSM Azerbaijan LLC

THE POWER OF BEING UNDERSTOOD

AUDIT | TAX | CONSULTING

"FİNOKO" BANK OLMAYAN KREDİT TƏŞKİLATI ASC
Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Maliyyə Hesabatları

31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə Müstəqil Auditorun Hesabatı ilə birlikdə

RSM

THE POWER OF BEING UNDERSTOOD

MÜNDƏRİCAT

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

MÜSTƏQİL AUDİTORUN HESABATI

MALİYYƏ HESABATLARI

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT 1

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT 2

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT 3

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT 4

MALİYYƏ HESABATLARI ÜZRƏ QEYDLƏR 5-52

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında (hesabatın 1-ci səhifəsi) göstərilmiş auditorun rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "FİNOKO" BOKT ASC (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik Cəmiyyətin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və mülahizələrin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nin tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Cəmiyyətin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Cəmiyyətin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin qorunmasının təmin edilməsi və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə maliyyə hesabatları Cəmiyyətin rəhbərliyi tərəfindən 27 fevral 2020-ci il tarixində təsdiq edilmişdir.

Rəhbərlik tərəfindən:

Turan İsmayılov
Baş direktor

«FİNOKO» Bank Olmayan Kredit Təşkilatı Açıq Səhmdar Cəmiyyəti
FINOKO
Kreditlər: tez və əlçatan

Vidadi Məmmədov
Maliyyə direktoru

RSM Azerbaijan
Demirchi Tower 16 th floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan
T +994(12) 480 4571
F +994(12) 480 4563
www.rsm.az

MÜSTƏQİL AUDİTORUN HESABATI

"FİNOKO" BOKT ASC-nin rəhbərliyinə:

Rəy

Biz Azərbaycan Respublikası "FİNOKO" BOKT ASC-nin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları 31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Digər məsələ

Cəmiyyətin 31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə maliyyə hesabatlarına 21 avqust 2019-cu il tarixində digər auditor tərəfindən müsbət rəy ifadə olunmuşdur.

Maliyyə Hesabatları üzrə Rəhbərliyin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına zəmin yaradan zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Rəhbərlik Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

RSM Azerbaijan is a member of the RSM network and trades as RSM. RSM is the trading name used by the members of the RSM network. Each member of the RSM network is an independent accounting and consulting firm which practices in its own right. The RSM network is not itself a separate legal entity in any jurisdiction.

RSM

Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.

- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.

- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.

- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.

- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik

27 fevral 2020-ci il

Bakı, Azərbaycan Respublikası

RSM Azerbaijan

"FİNOKO" BOKT ASC
31 DEKABR 2019-CU İL TARİXİNƏ
MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)

	Qeyd	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
AKTİVLƏR			
Pul vəsaitləri və onların ekvivalentləri	6	494,904	705,149
Müştərilərə verilmiş kreditlər və avanslar	7	19,059,910	15,473,931
Təxirə salınmış vergi aktivi	16	55,617	148,910
Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər	8	1,162,423	594,958
Avans vergi ödənişləri		-	25,586
Sair aktivlər	9	8,345,803	4,582,627
CƏMİ AKTİVLƏR		**29,118,657**	**21,531,161**
ÖHDƏLİKLƏR			
Müddətli borc öhdəlikləri	10	7,672,806	5,030,431
Buraxılmış borc qiymətli kağızlar	11	1,225,935	4,792,325
Mənfəət vergisi öhdəliyi		2,130	-
Sair öhdəliklər	12	14,911,554	10,606,496
CƏMİ ÖHDƏLİKLƏR		**23,812,425**	**20,429,252**
KAPİTAL			
Nizamnamə kapitalı	13	4,855,000	1,000,000
Bölüşdürülməmiş mənfəət		451,232	101,909
CƏMİ KAPİTAL		**5,306,232**	**1,101,909**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL		**29,118,657**	**21,531,161**

27 fevral 2020-ci il tarixində Rəhbərliyin adından təsdiqlənmiş və imzalanmışdır.

Turan İsmayılov
Baş direktor

"FİNOKO" Bank Olmayan Kredit Təşkilatı Açıq Səhmdar Cəmiyyəti
FINOKO
Kreditlər tez və əlçatan

Vidadi Məmmədov
Maliyyə direktoru

5-52-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.

"FİNOKO" BOKT ASC
31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ
MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT
(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)

	Qeyd	31 dekabr 2019-cu il tarixində başa çatan il	31 dekabr 2018-ci il tarixində başa çatan il
Effektiv faiz metodu ilə hesablanmış faiz gəlirləri	14	4,785,410	3,450,109
Faiz xərcləri	14	(3,004,800)	(2,157,677)
Faiz gəlirləri üzrə xalis marja		**1,780,610**	**1,292,432**
Kredit zərərləri üzrə ehtiyat	7	628,963	(85,230)
Kredit zərərləri üzrə ehtiyatın yaradılmasından sonra faiz gəlirləri üzrə xalis marja		**2,409,573**	**1,207,202**
Haqq və komissiya gəlirləri		14,282	20,428
Haqq və komissiya xərcləri		(94,173)	(66,320)
İnzibati və sair əməliyyat xərcləri	15	(1,710,418)	(1,178,651)
Sair gəlir		1,798	65,585
Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə (zərər)/gəlir		(4,155)	323
Vergidən əvvəlki mənfəət		**616,907**	**48,567**
Mənfəət vergisi xərci	16	(267,584)	(29,187)
İl üzrə mənfəət		**349,323**	**19,380**
İl üzrə cəmi məcmu gəlir		**349,323**	**19,380**

Turan İsmayılov
Baş direktor

"FİNOKO" Bank Olmayan Kredit Təşkilatı Açıq Səhmdar Cəmiyyəti

Vidadi Məmmədov
Maliyyə direktoru

5-52-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.

"FİNOKO" BOKT ASC
31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)

	Qeyd	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi kapital
31 dekabr 2017-ci il tarixinə		**1,000,000**	**472,600**	**1,472,600**
9 saylı MHBS-yə keçid: - gözlənilən kredit zərərlərinin yenidən ölçülməsi		-	(390,071)	(390,071)
01 yanvar 2018-ci il tarixinə		**1,000,000**	**82,529**	**1,082,529**
İl üzrə mənfəət		-	19,380	19,380
31 dekabr 2018-ci il tarixinə		**1,000,000**	**101,909**	**1,101,909**
Səhm kapitalında artım		3,855,000	-	**3,855,000**
İl üzrə mənfəət		-	349,323	**349,323**
31 dekabr 2019-cu il tarixinə		**4,855,000**	**451,232**	**5,306,232**

Turan İsmayılov
Baş direktor

Vidadi Məmmədov
Maliyyə direktoru

5-52-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.

"FİNOKO" BOKT ASC
31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ
PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)

	Qeyd	31 dekabr 2019-cu il tarixində başa çatan il	31 dekabr 2018-ci il tarixində başa çatan il
Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Alınmış faizlər		4,991,082	3,059,087
Ödənilmiş faizlər		(1,558,656)	(2,064,025)
Alınmış haqq və komissiyalar		14,282	20,428
Ödənilmiş haqq və komissiyalar		(94,173)	(66,320)
Alınmış sair əməliyyat gəlirləri		1,798	44,885
İşçi heyəti ilə bağlı ödənilmiş xərclər		(696,572)	(548,300)
Ödənilmiş icarə xərcləri	15	(126,963)	(106,383)
Ödənilmiş inzibati və sair əməliyyat xərcləri		(725,480)	(454,682)
Ödənilmiş mənfəət vergisi		(172,161)	(36,500)
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə istifadə edilən pul vəsaitlərinin hərəkəti		**1,633,157**	**(151,811)**
Xalis artım:			
- müştərilərə verilmiş kreditlər və avanslarda		(4,068,153)	(4,939,051)
- sair aktivlərdə		(4,171,915)	(2,929,456)
Xalis artım:			
- sair öhdəliklərdə		(4,623,936)	(108,435)
Əməliyyat fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri		**(11,230,847)**	**(8,128,753)**
İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Əmlak və avadanlıqların alınması	8	(95,610)	(259,363)
Qeyri-maddi aktivlərin alınması	8	(633,260)	(155,600)
Törəmə müəssisənin satışından daxilolmalar, pul vəsaitləri çıxılmaqla		-	464,000
İnvestisiya fəaliyyəti üzrə daxil olan/(istifadə edilən) xalis pul vəsaitləri		**(728,870)**	**49,037**
Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Müddətli borc öhdəliklərindən daxilolmalar		5,337,500	3,430,000
Müddətli borc öhdəliklərinin qaytarılması		(2,644,698)	(207,780)
Korporativ istiqrazların buraxılması		1,042,175	-
Korporativ istiqrazların qaytarılması		(314,501)	(476,028)
Əlavə kapital qoyuluşu	13	3,855,000	-
Sair öhdəliklərdən daxilolmalar (qeydiyyatdan keçməmiş veksellər)		5,844,000	5,893,275
Sair öhdəliklərin qaytarılması (qeydiyyatdan keçməmiş veksellər)		(1,370,004)	(492,689)
Törəmə müəssisədən alınmış avanslar		-	-
Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri		**11,749,472**	**8,146,778**
Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri		-	-
Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım		**(210,245)**	**67,062**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri	6	705,149	638,087
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	6	**494,904**	**705,149**

Turan İsmayılov
Baş direktor

Vidadi Məmmədov
Maliyyə direktoru

5-52-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.

1. Giriş

Hazırkı maliyyə hesabatları 31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə "FİNOKO" BOKT ASC ("Cəmiyyət") üçün Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmışdır.

Cəmiyyət Azərbaycan Respublikasında təsis olunub və bu ölkədə fəaliyyət göstərir. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq açıq səhmdar cəmiyyəti formasında yaradılmışdır.

Cəmiyyətin təsisçiləri və son nəzarətedici tərəfləri hər biri 50% iştirak payına sahib olan cənab Əliyev Elçin Rəşid oğlu və cənab Əliyev Elmar Rəşid oğludur.

Cəmiyyətin əsas fəaliyyəti

Cəmiyyətin əsas fəaliyyəti Azərbaycan Respublikası ərazisində kredit əməliyyatlarının aparılmasından ibarətdir. Cəmiyyət 11 mart 2014-cü il tarixində bank olmayan kredit təşkilatı kimi təsis edilmişdir.

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin Azərbaycan Respublikasında dörd filialı (2018: üç filial) vardır. 31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin 68 nəfər işçisi vardır (2018: 47 nəfər).

Cəmiyyətin hüquqi və faktiki ünvanı

Cəmiyyətin hüquqi ünvanı aşağıdakı kimidir: Yasamal rayonu, Hüseyn Cavid prospekti 5, AZ1073, Bakı, Azərbaycan Respublikası.

Cəmiyyətin faktiki ünvanı aşağıdakı kimidir: Qlobus Biznes Mərkəzi, 9-cu mərtəbə, C. Cabbarlı küçəsi 609, AZ 1065, Bakı, Azərbaycan Respublikası.

Təqdimat valyutası

Hazırkı maliyyə hesabatlarındakı məbləğlər başqa valyuta göstərilmədiyi halda Azərbaycan manatı ("AZN") ilə təqdim olunmuşdur.

2. Cəmiyyətin əməliyyat mühiti

Azərbaycan Respublikası

2019-cu ildə Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas makroiqtisadi proseslər müşahidə edilib. Hökumətin həyata keçirdiyi iqtisadi islahatlar Azərbaycan iqtisadiyyatının sabit inkişafına əplhəmiyyətli töhfə verib. Azərbaycan Respublikasının Mərkəzi Bankının 2019-cu ildə həyata keçirdiyi pul-kredit siyasəti aşağı və stabil inflyasiyanın təmin edilməsi yolu ilə qiymətlər sabitliyinin əldə olunmasına yönəlmiş, əhali və işgüzar fəaliyyət üçün əlverişli sosial-iqtisadi mühitin formalaşmasına istiqamətlənmişdir.

İl ərzində inflyasiya aşağı bir rəqəmli səviyyədə sabitləşmiş, iqtisadi artım pozitiv zonada qalmaqda davam etmiş, milli valyutanın məzənnəsi dayanıqlı olmuş, xarici sektorda müsbət meyillər baş vermiş, tədiyə balansının profisiti ölkənin strateji valyuta ehtiyatlarının artmasına şərait yaratmışdır.

Bununla yanaşı, vergi sistemində də əhəmiyyətli tədbirlər görülmüşdür. Vergi sisteminin çevikliyini və şəffaflığını təmin etmək məqsədilə Vergi Məcəlləsinə bir çox dəyişikliklər edilmişdir. 2018-ci ildə imzalanmış "Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında Qanunun" qəbul edilməsi nəticəsində Vergi Məcəlləsinə bir çox güzəştlər tətbiq edilmiş, o cümlədən kiçik və orta sahibkarlıq subyektləri 7 il müddətinə vergidən azad edilmiş, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən şəxslərin gəlirləri üçün vergi dərəcələri azaldılmışdır.

2. Cəmiyyətin əməliyyat mühiti (davamı)

2019-cu ilin yanvar ayında beynəlxalq kredit reytinqi agentliyi olan "Standard & Poor's" Maliyyə Xidmətləri MMC Azərbaycanın uzunmüddətli suveren kredit reytinqini xarici və milli valyutada "BB+/B" səviyyəsində təsdiqləyib. Uzunmüddətli kredit reytinqi üzrə proqnoz "sabit" saxlanılıb. Agentlik Azərbaycanın iqtisadi artımının orta səviyyədə bərpa olunacağını, lakin hələ də neft sənayesi tendensiyalarından və dövlət investisiyalarından asılı olacağını proqnozlaşdırır.

Cəmiyyətin rəhbərliyi mövcud iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür. Buna baxmayaraq, mövcud iqtisadi vəziyyətin gələcək təsirini qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

3. Əsas uçot siyasəti

Maliyyə hesabatlarının tərtib edilməsinin əsasları

Hazırkı maliyyə hesabatları maliyyə alətlərini ilkin olaraq ədalətli dəyərdə tanımaqla, Maliyyə Hesabatı Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Bu maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot siyasətləri aşağıda göstərilir. 01 yanvar 2018-ci il tarixindən 9 saylı MHBS və 15 saylı MHBS-yə keçidlə əlaqədar olaraq uçot siyasətində baş verən dəyişikliklərdən başqa, həmin uçot siyasəti başqa cür göstərilmədiyi hallarda, təqdim edilən bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir.

Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərə və maliyyə alətlərinin sayına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Fəal bazarda alınıb-satılmayan digər maliyyə aktivləri və öhdəlikləri üzrə portfel mövcud bazar şəraitində qiymətləndirmə tarixinə bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən müəyyən riskin qəbul edilməsi üçün xalis uzun mövqenin (yəni, aktivin) satılması və ya müəyyən riskin qəbul edilməsi üçün xalis qısa mövqenin (yəni, öhdəliyin) ötürülməsi məqsədilə əldə edilə biləcək qiymət əsasında maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupunun ədalətli dəyərində qiymətləndirilir. Bu, dövri olaraq ədalətli dəyərdə qeydə alınan aktivlərə o şərtlə tətbiq edilir ki, Cəmiyyət (a) müəssisənin risklərin idarə edilməsi və ya investisiya strategiyasına uyğun olaraq məruz qaldığı müəyyən bazar riski (və ya risklərinə) və ya müəyyən kontragentin kredit riskinə əsasən maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupunu idarə edir; (b) həmin prinsipə əsasən maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupu haqqında məlumatı müəssisənin baş rəhbərliyinə təqdim edir; və (c) bazar riskləri, o cümlədən müəssisənin maliyyə aktivləri və maliyyə öhdəlikləri ilə əlaqədar məruz qaldığı müəyən bazar riskinin (və ya risklərinin) müddəti əsasən eyni olur.

3. Əsas uçot siyasəti (davamı)

Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları (davamı)

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir. Qeyd 21-ə baxın.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqədilir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya olunmuş dəyər (AD) əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər-hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatın müvafiq maddələrinin balans dəyərinə daxil edilir.

Effektiv faiz metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi gələcək pul ödənişləri və ya daxilolmalarını (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin fəaliyyət müddəti və ya daha qısa müddət ərzində maliyyə alətinin ümumi balans dəyərinə diskontlaşdıran dərəcədir.

Maliyyə alətlərinin ilkin tanınması

MZƏD kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri və ədalətli dəyərin dəyişməsi sair məcmu gəlirə aid edilən ("DMGƏD") borc alətlərinə investisiyalar üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir.

3. Əsas uçot siyasəti (davamı)

Maliyyə alətlərinin ilkin tanınması (davamı)

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("standart şərtlər" əsasında alış və satışlar), Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar Cəmiyyətin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduğu halda tanınır.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: qiymətləndirmə kateqoriyaları

Cəmiyyət maliyyə aktivlərini amortizasiya olunmuş dəyərlə təsnifləşdirir və ölçür. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə ölçülməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Cəmiyyətin biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: biznes model

Biznes model Cəmiyyətin nağd pul axınları əldə etməsi məqsədilə portfelin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Cəmiyyətin məqsədinin: (i) aktivlərdən yalnız müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi ("müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması") və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan nağd pul axınlarının əldə edilməsi ("müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması") olub-olmadığını müəyyən edir. (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri "digər" biznes modellərə aid edilir və MZƏD kateqoriyasında ölçülür.

Biznes model qiymətləndirmə tarixində mövcud olan portfel üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün Cəmiyyətin həyata keçirməyi planlaşdırdığı fəaliyyətə dair bütün müvafiq sübutlar əsasında aktivlər qrupu (portfel səviyyəsində) üçün müəyyən edilir. Biznes modelin müəyyən edilməsi zamanı Cəmiyyətin nəzərə aldığı amillərə portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə pul axınlarının əldə edilməsi ilə bağlı keçmiş təcrübə, risklərin qiymətləndirilməsi və idarə edilməsi üzrə yanaşmalar və aktivlər üzrə gəlirliliyin qiymətləndirilməsi üsulları daxildir. Cəmiyyətin öz maliyyə aktivləri üçün biznes modellərin müəyyən edilməsi zamanı istifadə etdiyi əsas mülahizələr Qeyd 4-də göstərilir.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: pul axınlarının xüsusiyyətləri

Biznes model müqavilə üzrə pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə pul axınlarının əldə edilməsini və maliyyə aktivlərinin satılması üçün saxlanılmasını nəzərdə tutduqda, Cəmiyyət pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (YƏMFÖ təhlili).

Müqavilə şərtləri əsas kredit sazişinin şərtlərinə uyğun olmayan riskə və ya dəyişkənliyə məruz qalmanı nəzərdə tutduqda, müvafiq maliyyə aktivi MZƏD kateqoriyasında təsnifləşdirilir və qiymətləndirilir. YƏMFÖ təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir. Cəmiyyətin öz maliyyə aktivləri üçün YƏMFÖ təhlili həyata keçirdiyi zaman istifadə etdiyi əsas mülahizələr Qeyd 4-də göstərilir.

Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi

Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə, bütün maliyyə alətləri yenidən təsnifləşdirilir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada – biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Cəmiyyət cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsnifləşdirməmişdir.

3. Əsas uçot siyasəti (davamı)

Maliyyə aktivlərinin dəyərsizləşməsi: gözlənilən kredit zərərləri üzrə ehtiyat

Cəmiyyət amortizasiya olunmuş dəyərdə ölçülən borc alətləri üzrə gözlənilən kredit zərərlərini (GKZ) proqnozlar əsasında qiymətləndirir. Cəmiyyət hər bir hesabat tarixində gözlənilən kredit zərərlərini qiymətləndirir və kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatı tanıyır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat
Amortizasiya olunmuş dəyərdə ölçülən borc alətləri gözlənilən kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

Cəmiyyət maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanaraq üç mərhələli dəyərsizləşmə modeli tətbiq edir. İlkin tanınma zamanı dəyərsizləşməmiş maliyyə aləti 1-ci Mərhələyə təsnifləşdirilir. 1-ci Mərhələdə maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri növbəti 12 ay ərzində və ya müqavilədə nəzərdə tutulan ödəniş tarixinə qədər (12 ay bitənə qədər) baş verə bilən defolt hadisələri nəticəsində yaranmış bütöv müddət üçün gözlənilən kredit zərərləri ("12 aylıq gözlənilən kredit zərəri") məbləğində qiymətləndirilir. Cəmiyyət ilkin tanınma vaxtından etibarən kredit riskində əhəmiyyətli dərəcədə artımın ("KRƏA") baş verdiyini müəyyən edərsə, aktiv 2-ci Mərhələyə köçürülür və həmin aktiv üzrə gözlənilən kredit zərərləri bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında, yəni müqavilədə göstərilən ödəmə tarixinə qədər, lakin gözlənilən hər hansı qabaqcadan ödənişləri nəzərə almaqla ("bütöv müddət üçün gözlənilən kredit zərərləri") qiymətləndirilir. Kredit riskində əhəmiyyətli dərəcədə artımın baş verməsinin Cəmiyyət tərəfindən müəyyən edilməsi qaydası Qeyd 18-də təqdim edilir. Cəmiyyət maliyyə aktivinin dəyərsizləşməsini müəyyən edərsə aktiv 3-cü Mərhələyə köçürülür və həmin aktiv üzrə gözlənilən kredit zərərləri bütöv müddət üçün gözlənilən kredit zərərləri kimi qiymətləndirilir. Dəyərsizləşmiş aktivlərin və defolt hadisəsinin Cəmiyyət tərəfindən müəyyən edilməsi qaydası Qeyd 18-də izah edilir. Həmin Qeyddə gözlənilən kredit zərərlərinin qiymətləndirilməsində istifadə edilən ilkin məlumatlar, fərziyyələr və hesablama üsulları haqqında məlumat, eləcə də Cəmiyyət tərəfindən proqnoz məlumatlarının gözlənilən kredit zərərləri modellərinə daxil edilməsi qaydası göstərilir.

Maliyyə aktivlərinin tanınmasının dayandırılması

Cəmiyyət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Cəmiyyət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda.

Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları

Maliyyə öhdəlikləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür.

Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması

Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

3. Əsas uçot siyasəti (davamı)

Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qoyuluşlardır. Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, ilkin ödəniş müddəti üç aydan az olan banklararası depozitlər daxildir. Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudiyyət qoyulmuş vəsaitlər maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) müqavilə üzrə nağd pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin nağd pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ibarətdir, və (ii) MZƏD kateqoriyasında qiymətləndirilmir.

Müştərilərə verilmiş kreditlər və avanslar

Müştərilərə verilmiş kreditlər və avanslar müştərinin kreditini almaq və ya müştəriyə kredit vermək məqsədilə Cəmiyyət tərəfindən müştərilərə avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Biznes model və pul axınlarının xüsusiyyətini nəzərə alaraq, Cəmiyyət müştərilərə verilmiş kreditləri və avansları amortizasiya olunmuş dəyərdə təsnifləşdirir.

Dəyərsizləşmə üzrə ehtiyatlar gözlənilən kredit zərərləri üzrə proqnoz modellərə əsasən müəyyən edilir. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsində istifadə edilən ilkin məlumatlar, fərziyyələr və hesablama üsulları haqqında məlumat, eləcə də Cəmiyyət tərəfindən proqnoz məlumatlarının gözlənilən kredit zərərləri modellərinə daxil edilməsi qaydası Qeyd 18-də göstərilir.

Cəmiyyətin mülkiyyətinə keçmiş girov

Cəmiyyətin mülkiyyətinə keçmiş girov vaxtı keçmiş kreditlərlə bağlı Cəmiyyət tərəfindən əldə edilmiş maliyyə və qeyri-maliyyə aktivlərindən ibarətdir. Bu aktivlər əldə edildiyi zaman ilkin olaraq ədalətli dəyərdə tanınır və aktivlərin növündən və Cəmiyyətin həmin aktivləri istifadə etmək niyyətindən asılı olaraq əsas vəsaitlər, digər maliyyə aktivləri, investisiya mülkiyyəti və sair aktivlərin tərkibində mal-material ehtiyatlarına daxil edilir və sonradan belə aktivlər üzrə uçot siyasətlərinə uyğun olaraq yenidən qiymətləndirilir və uçota alınır.

Əmlak və avadanlıqlar

Əmlak hər hansı yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır.

Kiçik həcmli təmir və gündəlik texniki xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Əmlak və avadanlıqların əsas hissələrinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda əmlak və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcudluğunu qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa dəyərini təxmin edir. Aktivin bərpa dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Aktivin balans dəyəri onun bərpa dəyərinə qədər azaldılır və dəyərsizləşmə üzrə zərər il üzrə mənfəət və ya zərərdə tanınır. Aktivin satışı üzrə məsrəflər çıxılmaqla, onun istifadə dəyəri və ya ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə tanınmış dəyərsizləşmə üzrə zərər ləğv edilir.
Əmlak və avadanlıqların silinməsindən yaranan mənfəət və ya zərər gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və il üzrə mənfəət və ya zərərdə (digər əməliyyat gəlirləri və xərcləri kimi) tanınır.

3. Əsas uçot siyasəti (davamı)

Köhnəlmə

Əmlak və avadanlıqlar üzrə amortizasiya düz xətt metoduna, yəni əsas vəsaitlərin aşağıda göstərilən təxmini faydalı istifadə müddəti ərzində aktivlərin ilkin dəyərini və ya yenidən qiymətləndirilmiş dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

	Faydalı istifadə müddəti
Mebel və digər avadanlıqlar	4 il
Kompüter və rabitə avadanlıqları	4 il
Nəqliyyat vasitələri	4 il
Digər əsas vəsaitlər	4 il
İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri	müvafiq lizinq müqaviləsinin müddəti ərzində

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər cıxıldıqdan sonra, Cəmiyyət tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Cəmiyyət aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfra bərabər olur. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

Qeyri-maddi aktivlər

Cəmiyyətin bütün qeyri-maddi aktivləri müəyyən faydalı istifadə müddətlərinə malik olmaqla əsasən kapitallaşdırılmış proqram təminatından ibarətdir.

Proqram təminatı üzrə əldə edilmiş lisenziyalar həmin proqram təminatının alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Proqram təminatı ilə bağlı bütün digər xərclər (məsələn, texniki dəstək xərcləri) çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış proqram təminatı təxmin edilən faydalı istifadə müddəti (5-10 il) ərzində düz xətt metoduna əsasən amortizasiya olunur.

Əməliyyat lizinqi

Cəmiyyət lizinq obyektinin mülkiyyət hüququ ilə bağlı risk və faydaların lizinq verəndən Cəmiyyətə ötürülməsini nəzərdə tutmayan lizinq müqaviləsi üzrə lizinq alan qismində çıxış etdiyi hallarda, ümumi lizinq ödənişləri lizinq müddəti ərzində düz xətt metoduna əsasən il üzrə mənfəət və ya zərərdə (icarə xərcləri kimi) göstərilir.

Müddətli borc öhdəlikləri

Müddətli borc öhdəliklərinə rezident və qeyri-rezident banklardan, eləcə də digər maliyə institutlarından müəyyən edilmiş ödəmə müddətləri və sabit faiz dərəcəsi ilə cəlb edilmiş kreditlər daxildir. Müddətli borc öhdəlikləri ilkin tanınmadan sonra amortizasiya olunmuş dəyərdə qeydə alınır.

Buraxılmış borc qiymətli kağızlar

Buraxılmış borc qiymətli kağızlara Cəmiyyət tərəfindən emissiya edilmiş veksellər və korporativ istiqrazlar daxildir. Buraxılmış borc qiymətli kağızlar amortizasiya olunmuş dəyərdə qeydə alınır.

3. Əsas uçot siyasəti (davamı)

Mənfəət vergisi

Hazırkı maliyyə hesabatlarında əks etdirilən mənfəət vergisi Azərbaycan Respublikasının qüvvədə olan və ya hesabat dövrünün sonuna qüvvəyə minmiş qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri bilavasitə sair məcmu gəlirlərdə qeydə alınan əməliyyatlar istisna olmaqla, məcmu gəlirlərdə qeydə alınır.

Cari mənfəət vergisi cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları, qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır. Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri müvəqqəti fərqlərin geri qaytarılması, kifayət qədər vergi tutulan gələcək gəlirlərin yaranması və bu gəlirlər üzrə çıxılmaların istifadə edilməsi ehtimalını nəzərə alaraq tanınır.

Qeyri-müəyyən vergi mövqeləri

Cəmiyyətin qeyri-müəyyən vergi mövqeləri rəhbərlik tərəfindən hər bir hesabat dövrünün sonunda yenidən qiymətləndirilir. Rəhbərlik Cəmiyyətin vergi mövqeyinə vergi orqanları tərəfindən etiraz edildiyi halda, əlavə vergi öhdəliklərinin yaranmasını ehtimal etdikdə, vergi öhdəlikləri nəzərə alınmır. Bu cür qiymətləndirmə qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi qanunvericiliyinin təfsirinə və bu məsələlərə dair hər hansı məhkəmə və ya digər qurumların məlum qərarlarına əsasən aparılır. Mənfəət vergisi istisna olmaqla, cərimələr, penyalar və vergilər üzrə öhdəliklər hesabat dövrünün sonunda öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan xərclərə dair rəhbərliyin ən yaxşı təxminləri əsasında uçota alınır.

Gəlir və xərclərin uçotu

Bütün borc alətləri üzrə faiz gəlirləri və xərcləri effektiv faiz metoduna əsasən hesablama metodu ilə mənfəət və ya zərərdə qeydə alınır. Bu metoda əsasən, faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və sövdələşmə sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar alınmış və ya ödənilmiş komissiya haqları daxildir.

3. Əsas uçot siyasəti (davamı)

Gəlir və xərclərin uçotu (davamı)

Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Cəmiyyət tərəfindən alınmış komissiya haqları, Cəmiyyətin xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Cəmiyyət kreditlərin verilməsi üzrə öhdəlikləri MZƏD kateqoriyasına aid olunan maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.
Faiz gəlirləri dəyərsizləşmiş maliyyə aktivləri (3-cü Mərhələ) istisna olmaqla, maliyyə aktivlərinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır. Belə aktivlər üzrə faiz gəlirini hesablayarkən dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aktivin amortizasiya olunmuş dəyərinə effektiv faiz dərəcəsi tətbiq edilir.

Haqq və komissiya gəlirləri

Haqq və komissiya gəlirləri müştərinin Cəmiyyət tərəfindən göstərilən xidmətlərin faydasını eyni anda qəbul və istifadə etdiyi müəyyən dövr ərzində düz xətt metodu ilə tanınır. Belə gəlirlərə zəmanət məktubları üzrə haqq və komissiyalar daxildir.
Sair haqq və komissiya gəlirləri Cəmiyyət öz icra öhdəliyini yerinə yetirdiyi anda, adətən müvafiq əməliyyatı həyata keçirdikdən sonra tanınır. Alınmış və ya alınacaq haqq və komissiya məbləği fərqli icra öhdəlikləri kimi müəyyən edilmiş xidmətlər üzrə əməliyyat qiymətini əks etdirir.

Xarici valyutanın çevrilməsi

Cəmiyyətin əməliyyat valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional və təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Monetar aktiv və öhdəliklər Mərkəzi Bankın müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən Cəmiyyətin əməliyyat valyutasına çevrilir. Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə Cəmiyyətin əməliyyat valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər il üzrə mənfəət və ya zərərdə (məzənnə fərqi üzrə zərər çıxılmaqla gəlir kimi) tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr, o cümlədən səhm investisiyaları ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə əməliyyat valyutasına çevrilir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyərin dəyişməsindən yaranan gəlir və ya zərərin bir hissəsi kimi əks etdirilir.

31 dekabr 2019-cu il tarixinə ABŞ dolları ilə ifadə olunmuş xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN (2018: 1 ABŞ dolları = 1.7000 AZN).

Əvəzləşdirmə

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

3. Əsas uçot siyasəti (davamı)

İşçi heyəti ilə bağlı xərclər və müvafiq ayırmalar

Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır. Cəmiyyətin yerli qanunvericiliklə müəyyən edilmiş ödənişlərdən başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərdə qeydə alınır.

Müştərilərə verilmiş kreditlər və avanslar

Müştərilərə verilmiş kreditlər və avanslar amortizasiya olunmuş dəyərlə qeydə alınmış və dəyərsizləşmə üzrə zərərlər maliyyə aktivinin ilkin tanınmasından sonra baş vermiş bir və ya bir neçə hadisə ("zərər hadisəsi") nəticəsində yarandıqda və bu zərər hadisəsi maliyyə aktivi və ya maliyyə aktivləri qrupu üzrə daxil olacaq pul axınlarının məbləğinə və vaxtına etibarlı şəkildə təxmin edilə bilən təsir göstərdikdə mənfəət və ya zərərdə tanınmışdır. Cəmiyyət əhəmiyyətli olub-olmamasından asılı olmayaraq, fərdi şəkildə qiymətləndirilən maliyyə aktivinin dəyərsizləşməsinə dair obyektiv sübutun olmadığı qənaətinə gəldikdə, həmin aktivi analoji kredit riski xüsusiyyətlərinə malik olan maliyyə aktivləri qrupuna daxil etmiş və onların dəyərsizləşməsini məcmu şəkildə təhlil etmişdir.
Maliyyə aktivinin dəyərsizləşməsini müəyyən edərkən Cəmiyyətin nəzərə aldığı əsas amillər həmin aktivin vaxtı keçməsi statusu və hər hansı girov təminatının realizasiya oluna bilməsidir. Kredit üzrə zərərin baş verməsinə dair obyektiv əlamətlərin mövcud olmasını müəyyən edən əsas meyarlar aşağıda göstərilir:

- hər-hansı ödənişin gecikdirilməsi və bu zaman gecikdirilmiş ödənişin hesablaşma sistemlərindəki gecikmə ilə izah edilə bilməməsi;
- borcalanın əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi və bunun Cəmiyyətin borcalan haqqında maliyyə məlumatları ilə təsdiqlənməsi;
- borcalanın müflisləşməsi və ya onun maliyyə strukturunun yenidən təşkil edilməsi;
- borcalana təsir göstərən milli və ya yerli iqtisadi şəraitin dəyişməsi nəticəsində onun ödəniş statusunda mənfi dəyişikliklərin baş verməsi; və ya
- girovun dəyərinin bazar şərtlərinin pisləşməsi nəticəsində əhəmiyyətli dərəcədə aşağı düşməsi.

Kredit zərərinin məcmu şəkildə qiymətləndirilməsi məqsədilə maliyyə aktivləri kredit riski üzrə oxşar xüsusiyyətlərə görə qruplaşdırılmışdır. Həmin xüsusiyyətlər qiymətləndirilən aktivlərin müqavilə şərtlərinə əsasən borcalanların ödəmə qabiliyyətini təsdiqləmişdir ki, bu da belə aktivlərlə bağlı gələcək pul vəsaitlərinin təxmin edilməsi üçün uyğun olmuşdur.

Kredit zərəri məcmu şəkildə qiymətləndirilən maliyyə aktivləri qrupundakı pul vəsaitlərinin gələcək hərəkəti, həmin aktivlərlə bağlı müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, keçmişdə baş vermiş zərər halları nəticəsində yaranacaq vaxtı keçmiş borcların həcminə dair rəhbərlikdə mövcud olan statistikaya və vaxtı keçmiş borcların geri qaytarılması nailiyyətinə əsasən müəyyən edilmişdir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş hadisələrin təsirini aradan qaldırmaq məqsədilə, keçmiş illərin statistikası müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənmişdir.

3. Əsas uçot siyasəti (davamı)

Amortizasiya edilmiş dəyərlə əks etdirilən dəyərsizləşmiş maliyyə aktivi ilə bağlı şərtlərə yenidən baxıldıqda və ya bu şərtlər borcalanın və ya emitentin maliyyə vəziyyətindəki çətinliklərə görə dəyişdikdə, dəyərsizləşmə şərtlərin dəyişməsindən əvvəlki effektiv faiz dərəcəsinə əsasən ölçülmüşdür. Şərtlərinə yenidən baxılmış aktivin tanınmasının dayandırılması zamanı risk və faydalar əhəmiyyətli dərəcədə dəyişdikdə, yeni aktiv ədalətli dəyərlə tanınmışdır. Bu, adətən ilkin və yeni gözlənilən nağd pul axınlarının cari dəyərləri arasındakı fərq əhəmiyyətli olduqda müşahidə olunmuşdur.

Aktivin balans dəyərini effektiv faiz dərəcəsilə diskont edilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinə (kreditlər üzrə baş verməmiş gələcək zərərlər istisna olmaqla) bərabərləşdirmək üçün aktivlər üçün dəyərsizləşmə üzrə zərərlər ehtiyat hesablarında qeydə alınır. Girov qoyulmuş maliyyə aktivi üzrə təxmin edilən gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinin hesablanması girovun alınması və satılması ilə bağlı məsrəflər çıxılmaqla, girov nəticəsində yarana bilən (girovun olub-olmaması ehtimal edildikdə) pul vəsaitlərinin hərəkətini əks etdirir.

Kredit üzrə zərərin məbləği sonrakı dövrdə baş vermiş hadisəyə görə azaldıqda və həmin azalma obyektiv olaraq zərərin qeydə alınmasından sonra baş vermiş hadisəyə (məsələn, borcalanın kredit reytinqinin artması kimi) aid edildikdə əvvəl qeydə alınmış dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərər hesabına yaradılmış ehtiyata düzəliş etməklə qaytarılmışdır.

Aktivlər qaytarıla bilmədikdə, onlar aktivin və ya onun hissəsinin bərpa olunması üçün bütün zəruri prosedurların tamamlanmasından və zərərin məbləğinin müəyyən edilməsindən sonra müvafiq zərər ehtiyatından silinmişdir. Əvvəllər silinmiş məbləğlərin qaytarılması il üzrə mənfəət və ya zərərdə dəyərsizləşmə üzrə zərərin azaldılması kimi uçota alınmışdır.

Gəlir və xərclərin uçotu

Bütün borc alətləri üzrə faiz gəlirləri və xərcləri effektiv faiz metoduna əsasən hesablama metodu ilə qeydə alınır. Bu metoda əsasən faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və sövdələşmə sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar alınmış və ya ödənilmiş komissiya haqları daxildir. Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Cəmiyyət tərəfindən alınmış komissiya haqları, Cəmiyyətin xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Cəmiyyət kreditlərin verilməsi üzrə öhdəlikləri mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə qeydə alınan maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.

Kreditlərin və digər borc alətlərinin vaxtında qaytarılması ilə bağlı şübhə yarandıqda, onlar bərpa edilə bilən dəyərə qədər azaldılır və dəyərsizləşməni müəyyən etmək üçün gələcək pul vəsaitləri hərəkətinin diskontlaşdırılması zamanı istifadə edilən effektiv faiz dərəcəsi əsasında faiz gəlirləri hesablanır.

Bütün digər komissiya gəlirləri və sair gəlirlər adətən tamamlanma dərəcəsindən asılı olaraq hesablama metodu ilə qeydə alınır. Tamamlanma dərəcəsi faktiki göstərilmiş xidmətlərin ümumi göstərilməli olan xidmətlərə nisbəti kimi müəyyən edilir.

4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Cəmiyyət maliyyə hesabatlarında göstərilən məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi müvafiq metodologiya, modellər və ilkin məlumatlardan istifadə etməklə aparılan əhəmiyyətli hesablamadır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi metodologiyasına dair ətraflı məlumat Qeyd 18-də təqdim edilir. Aşağıdakı komponentlər kredit zərərləri üzrə ehtiyata əhəmiyyətli dərəcədə təsir göstərir: defolt, kredit riskinin əhəmiyyətli dərəcədə artması (KRƏA), defolt ehtimalı (DE), defolta məruz qalan dəyər (DMQD), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (DHZ), eləcə də makroiqtisadi ssenarilər. Cəmiyyət gözlənilən kredit zərərləri üzrə ehtimallar və faktiki kredit zərərləri arasındakı fərqlərin azaldılması məqsədilə modelləri və modellər üzrə məlumatları müntəzəm olaraq təhlil edir və təsdiqləyir.

Kredit riskinin əhəmiyyətli dərəcədə artması

Kredit riskinin əhəmiyyətli dərəcədə artması ilə bağlı qiymətləndirmə aparmaq üçün Cəmiyyət hesabat və ilkin tanınma tarixlərinə maliyyə aktivi üzrə hesablanmış müvafiq defolt risklərini müqayisə edir. Qiymətləndirmə zamanı hesabat tarixinə kredit riskinin müəyyən səviyyəsi deyil, kredit riskinin nisbətən artması nəzərdən keçirilir. Cəmiyyət əldə olunması əlavə xərc tələb etməyən dəstəkləyici və əsaslandırılmış məlumatları, o cümlədən müəyyən müştəri portfellərinin davranış aspektləri daxil olmaqla, bir sıra amilləri nəzərə alır. Cəmiyyət defolt anına qədər kredit riskinin artması ilə bağlı davranış əlamətlərini müəyyən müəyyən edir və müvafiq proqnoz məlumatlarını fərdi maliyyə aləti və ya portfel səviyyəsində kredit riskinin qiymətləndirilməsində istifadə edir. Qeyd 18-ə baxın.

Biznes modelin qiymətləndirilməsi

Maliyyə aktivləri biznes model əsasında təsnifləşdirilir. Biznes modeli qiymətləndirərkən rəhbərlik birləşmə səviyyəsini və maliyyə alətləri üzrə portfelləri müəyyən etmək üçün mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını qiymətləndirərkən Cəmiyyət onların əvvəlki dövrlərdə baş vermə tezliyini, müddətini və dəyərini, satış səbəblərini və gələcək satışlar ilə bağlı gözləntiləri nəzərə alır. Kredit keyfiyyətinin pisləşməsinə görə potensial zərərlərin azaldılmasına yönəldilmiş satış əməliyyatları "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir. Kredit riskinin idarə olunması tədbirləri ilə bağlı olmayan ödəmə müddətinə qədər həyata keçirilən digər satışlar da nadir hallarda baş verməsi və dəyərinin ayrılıqda və ya məcmu olaraq əhəmiyyətli olmaması şərtilə, "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir.

4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)

Cəmiyyət satış əməliyyatlarının əhəmiyyətini satışların həcmi ilə portfelin orta müddəti ərzində biznes modeli qiymətləndirilən portfelin dəyərini müqayisə etməklə qiymətləndirir. Bundan əlavə, yalnız "stress" ssenarilərdə və ya Cəmiyyətin nəzarətində olmayan, təkrar baş verməyən və Cəmiyyət tərəfindən proqnozalşdırıla bilməyən ayrıca hadisə ilə bağlı gözlənilən maliyyə aktivlərinin satışı biznes modelin məqsədi ilə əlaqəli olmayan satış əməliyyatı hesab olunur və müvafiq maliyyə aktivlərinin təsnifatına təsir göstərmir.

"Pul axınlarının əldə edilməsi və satılması" biznes modelində aktivlərin pul axınlarının əldə edilməsi üçün saxlanılması nəzərdə tutulsa da, aktivlərin biznes modelin məqsədlərinə (likvidlik ehtiyaclarının idarə olunması, müəyyən faiz gəlirlərinin əldə edilməsi və ya maliyyə aktivlərinin müddətinin həmin aktivlərin maliyyələşdirdiyi öhdəliklərin müddəti ilə uyğunlaşdırılması) nail olmaq üçün satışı onun tərkib hissəsi hesab edilir.

Digər kateqoriyaya əsasən satış vasitəsilə mənfəət əldə etmək üçün nağd pul axınlarının reallaşdırılması məqsədilə idarə olunan maliyyə aktivləri üzrə portfellər daxildir. Bu biznes model adətən müqavilədə nəzərdə tutulan pul axınlarının əldə edilməsi ilə əlaqəlidir.

Pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri ("YƏMFÖ") meyarına uyğunluğunun qiymətləndirilməsi

Maliyyə aktivi üzrə pul axınlarının yalnız əsas borc və faiz ödənişləri meyarına uyğunluğunu müəyyən etmək üçün mülahizələrin irəli sürülməsi tələb edilir.

Cəmiyyət müqavilə üzrə nağd pul axınlarının müddətini və ya məbləğini dəyişən müqavilə şərtlərini müəyyən etmiş və nəzərdən keçirmişdir. Nağd pul axınları o halda yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun hesab edilir ki, kreditin şərtlərinə görə onu vaxtından əvvəl ödəmək mümkün olsun, vaxtından əvvəl ödənilən məbləğ əsas borcu və hesablanmış faizləri, eləcə də müqaviləyə vaxtından əvvəl xitam verilməsinə görə əsaslandırılmış əlavə kompensasiyanı özündə əks etdirsin. Aktiv üzrə əsas məbləğ əsas borc üzrə sonrakı ödənişlər (yəni, effektiv faiz metodundan istifadə etməklə müəyyən edilmiş faizsiz ödənişləri) çıxılmaqla, ilkin tanınma zamanı ədalətli dəyərə bərabərdir. Bu qaydada istisna hal olaraq standart, həmçinin qabaqcadan ödəniş elementlərinə malik olan alətlərə yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun olmaq üçün aşağıdakı şərtlərə cavab verməyə imkan yaradır: (i) aktiv mükafat və ya güzəştlə verildikdə (ii) qabaqcadan ödəniş məbləği müqavilə üzrə nominal dəyərdən və hesablanmış faizlərdən, eləcə də müqaviləyə vaxtından əvvəl xitam verilməsinə görə əsaslandırılmış əlavə kompensasiyadan ibarət olduqda və (ii) ilkin tanınma zamanı vaxtından əvvəl ödəniş elementinin ədalətli dəyəri əhəmiyyətsiz olduqda.

Cəmiyyətin kredit müqavilələri makroiqtisadi və ya normativ şərtlərdəki müəyyən dəyişikliklərə cavab olaraq faiz dərəcələrinin tənzimlənməsinə imkan verir. Rəhbərliyin öz mülahizəsi və qiymətləndirməsinə görə, bank sektorundakı rəqabət və borcalanların kreditləri yenidən maliyyələşdirmək qabiliyyəti faiz dərəcələrini bazar səviyyəsindən daha yuxarı müəyyən etməsinə mane olur və buna görə də pul axınları SPPI meyarına uyğun qiymətləndirilir.

Təxirə salınmış vergi aktivinin uçotu

Tanınmış təxirə salınmış xalis vergi aktivi vergiyə cəlb olunan gəlirdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisi məbləğlərindən ibarətdir və maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivi müvafiq vergi faydasının realizasiya oluna biləcəyi zaman qeydə alınır. Vergiyə cəlb olunan gələcək mənfəətin və gələcəkdə yaranması ehtimal edilən vergi faydası məbləğinin müəyyən edilməsi rəhbərlik tərəfindən hazırlanmış ortamüddətli biznes planına və onun ekstrapolyasiya nəticələrinə əsaslanır. Biznes-plan rəhbərliyin şəraitə adekvat olan təxminlərinə əsaslanır.

5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (bundan sonra MUBSŞ) və MUBSŞ-nin Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (bundan sonra MHBŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2019-cu il tarixində tamamlanan hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir. Bu yeni standart və şərhlərin qəbul edilməsi Cəmiyyətin mühasibat uçotu siyasətinə, yəni cari və ya əvvəlki illər üzrə hesabat verilən məbləğlərə əhəmiyyətli təsirlər göstərməmişdir.

Aşağıda qeyd olunan yeni və ya düzəliş edilmiş standartlar və şərhlər ilk dəfə 01 yanvar 2019-cu il tarixindən etibarən başlayan maliyyə hesabat dövrlərində tətbiq olunur:

16 saylı MHBS

16 saylı MHBS ilk növbədə icarəyə götürənin uçotuna təsir göstərir və demək olar ki, bütün lizinqlərin maliyyə vəziyyəti haqqında hesabatda tanınmasını tələb edir. Standart əməliyyat və maliyyə lizinqləri arasındakı mövcud fərqi aradan qaldırır, aktivlərin (icarəyə götürülmüş əmlakdan istifadə hüququ) və lizinq müqavilələrinə əsasən ödənilməsi nəzərdə tutulan öhdəliklərin tanınmasını tələb edən vahid mühasibatlıq modelini təqdim edir.

Standart ilkin tətbiq tarixində icarə müddəti 12 ay ərzində tamamlanan və alış seçimi ehtiva etməyən ("qısamüddətli icarələr") icarə müqavilələrinə, eləcə də aktivinin dəyəri az olan icarə müqavilələrinə ("aşağı dəyərli aktivlər") istisna hüququ təklif edir.

Eyni zamanda dəyişiklik mənfəət və ya zərər haqqında hesabata da öz təsirini göstərmişdir, buna səbəb lizinq üçün ümumi xərcin ilk illərdə daha yüksək sonraki dövrlərdə isə daha az görünməsidir.

Bununla yanaşı, əməliyyat xərcləri aktivdən istifadə hüququnun köhnəlmə xərcləri və lizinq öhdəlikləri üzrə faiz xərcləri ilə əvəzləşdirilir, bu da əsas ölçü meyarı FVKMƏG-nin (faiz,vergi, köhnəlmə və amortizasiyadan öncəki gəlir) dəyişməsi ilə nəticələnir.

Lizinq öhdəliyinin əsas hissəsi üçün nağd ödənişlər maliyyə fəaliyyətləri daxilində təsnif edildiyindən əməliyyat fəaliyyətinə yönəlmiş pul vəsaitlərinin hərəkəti daha yüksək olur. Ödənişlərin yalnız faizi əks etdirən hissəsi əməliyyat fəaliyyətinə yönəlmiş pul vəsaitlərinin hərəkəti kimi təqdim olunmağa davam etdirilə bilər.

Standart Cəmiyyətin icarəyə verən qismində təmsil olduğu müqavilələrdə əhəmiyyətli dəyişikliyə səbəb olmayacaqdır. Yalnız lizinqin təyinatına dair yeni təlimatdan irəli gələrək müəyyən fərqlər yarana bilər.
16 saylı MHBS-ə əsasən müqavilə ilə müəyyən edilmiş müddət ərzində ödənişlər müqabilində aktivdən istifadə hüququ nəzərdə tutulduğu təqdirdə lizinq müqaviləsi hesab edilir.

Təklif olunan istisna halları nəzərə alınaraq, qeyd olunan standartın qəbul edilməsi Cəmiyyətin maliyyə hesabatlarına təsir göstərməmişdir.

23 saylı Şərh – Mənfəət vergisi ilə bağlı qeyri-müəyyənlik

Şərh vergi əməliyyatları zamanı 12 saylı MUBS "Gəlir Vergisi"-nin tətbiqinə təsir göstərən qeyri-müəyyənlik aşkar olunduqda mənfəət vergisinin uçotunu nəzərdən keçirir. Bu şərh 12 saylı MUBS-dan kənar vergilərə və ya yığımlara şamil edilmir və müəyyən vergi əməliyyatları ilə əlaqəli faiz və cərimələrə aid tələbləri özündə əks etdirmir. Bu təfsir xüsusi olaraq aşağıdakıları əhatə edir:

- Müəssisənin qeyri-müəyyən vergi yanaşmalarını ayrıca nəzərdən keçirib keçirməməsi;
- Müəssisənin vergi orqanları tərəfindən vergi əməliyyatlarının araşdırılması barədə irəli sürdüyü fərziyyələr;

5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

- Müəssisənin vergiyə cəlb olunan mənfəətini (və yaxud vergi zərəri), vergi bazalarını, istifadə olunmamış vergi zərərlərini, vergi kreditlərini və dərəcələrinin necə müəyyənləşdirdiyi;
- Müəssisənin faktlara və mövcud vəziyyətdəki dəyişikliklərə necə yanaşdığı.
- Cəmiyyət hər bir qeyri müəyyən vergi yanaşmasını ayrılıqda və ya bir neçə qeyri-müəyyən vergi yanaşması ilə birlikdə nəzərə alıb almayacağını müəyyənləşdirir və bu qeyri-müəyyənliyin həllini daha yaxşı tənzimləyən yanaşmadan istifadə edir.

Cəmiyyət mənfəət vergisi yanaşması üzrə qeyri-müəyyənliklərin aradan qaldırılmasında əhəmiyyətli mülahizələri tətbiq edir. Cəmiyyət mürəkkəb mühitdə fəaliyyət göstərdiyinə görə, qeyd edilən Şərhin maliyyə hesabatlarına təsir dərəcəsi Cəmiyyət tərəfindən qiymətləndirilir. Şərh qəbul edildikdən sonra Cəmiyyət, xüsusilə köçürmə qiymətləriylə bağlı qeyri-müəyyən vergi mövqelərinin mövcud olub olmadığını müəyyən edir. Müəssisə və törəmə şirkətlərin müxtəlif ölkələrdə vergi sənədlərinə köçürmə qiymətləri ilə əlaqədar xüsusi imtiyazlar şamil edilə bilər və eyni zamanda yerli vergi orqanları bu prosedurlara dəyişiklik edə bilər.

Cəmiyyət vergi uyğunluğuna və köçürmə əməliyyatlarına dair apardığı tədqiqata əsasən vergi qaydalarının yerli vergi orqanları tərəfindən qəbul olunduğuna qənaət edir. Şərh Cəmiyyətin maliyyə hesabatlarına əsaslı təsir göstərməmişdir.

9 saylı MHBS-yə düzəlişlər – "Mənfi kompensasiyanı nəzərdə tutan qabaqcadan ödəmə növü"

9 saylı MHBS-yə əsasən borc aləti amortizasiya hesablanmış dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə o şərtlə qiymətləndirilə bilər ki, müqavilə ilə nəzərdə tutulan pul vəsaitlərinin hərəkəti "yalnız əsas məbləğin və faizin ödənilməsi" (YƏMFÖ) meyarına uyğun olsun və alət bu təsnifləşdirməyə müvafiq olan biznes modeli çərçivəsində saxlanılsın. 9 saylı MHBS-yə edilən düzəlişlər izah edir ki, müqavilənin vaxtından əvvəl ləğvinə səbəb olan hadisə və ya haldan və müqavilənin xitamına görə müvafiq kompensasiyanı hansı tərəfin ödəməsindən asılı olmayaraq maliyyə aktivi üzrə YƏMFÖ meyarı tətbiq olunur.

Bu dəyişikliklərin Cəmiyyətin maliyyə hesabatlarına heç bir təsiri yoxdur.

28 saylı MHBS-yə düzəlişlər – Asılı və Birgə müəssisələrdə uzunmüddətli maraqlar

Düzəlişlər izah edir ki, müəssisə 9 saylı MHBS-ni asılı və birgə müəssisələrdəki kapital payı metodunun tətbiq edilmədiyi uzunmüddətli faizlərə tətbiq edir, əslində isə asılı və birgə müəssisələrə xalis investisiyanın bir hissəsini təşkil etdiyini aydınlaşdır. 9 saylı MHBS-də gözlənilən kredit zərəri modelinin belə uzunmüddətli faizlərə tətbiq olunması nəzərdə tutulduğu üçün bu açıqlama aktualdır. Düzəlişlər, həmçinin 9 saylı MHBS tətbiq edərkən asılı və ya birgə müəssisənin zərərlərini və ya 28 saylı MUBS-yə əsasən xalis investisiya düzəlişləri kimi tanınan xalis investisiya üzrə dəyərsizləşmə zərərlərini nəzərə almır.

Cəmiyyətin maliyyə hesabatlarına təsir göstərməmişdir.

MHBS standartlarına 2015-2017-ci illər üzrə illik təkmilləşdirmələr.

3 saylı MHBS – müəssisələrin birləşməsi

Düzəlişlər, bir müəssisə müştərək əməliyyatları olan digər müəssisəyə nəzarət hüququ əldə etdikdə müəssisələrin birləşməsinə dair mərhələli şəkildə yerinə yetirilən tələbləri, o cümlədən birgə əməliyyatın aktiv və öhdəliklərində əvvəllər tutulan faizləri ədalətli dəyərdə yenidən qiymətləndirməyə dair tələbləri aydınlaşdırır. Bununla, alıcı birgə əməliyyatda əvvəllər tətbiq olunan faizləri yenidən qiymətləndirir.

5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

Müəssisələr bu düzəlişləri könüllü erkən tətbiqə icazə verilməklə, ilk tətbiq tarixi 01 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlayan ilk illik hesabat dövrləri üçün tanıyır. Cəmiyyətin birgə nəzarət hüququ ilə həyata keçirdiyi əməliyyatları mövcud olmadığı üçün bu düzəlişlər Cəmiyyətin maliyyə hesabatlarına təsir göstərmir.

11 saylı MHBS - Birgə Razılaşmalar

Ortaq əməliyyatlarda iştirak edən, lakin birgə nəzarət hüququ olmayan müəssisə, 3 saylı MHBS-də müəyyən edilmiş ortaq əməliyyatlara birgə nəzarəti əldə edə bilər. Düzəliş izah edir ki, bu birgə razılaşmalarda daha əvvəl tətbiq olunan fazilər yenidən qiymətləndirilmir.

Müəssisələr bu düzəlişləri 01 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün erkən könüllü tətbiqə icazə verilməklə tətbiq edir. Cəmiyyət birgə razılaşma ehtiva edən əməliyyat həyata keçirmədiyi üçün bu düzəlişlər Cəmiyyətin maliyyə hesabatlarına təsir göstərmir.

12 saylı MUBS - Mənfəət Vergisi

Düzəlişlər izah edir ki, dividendlərin mənfəət vergisi nəticələri mülkiyyətçilərə paylamalara deyil, bölüşdürülə bilən mənfəəti yaradan keçmiş əməliyyatlar və ya hadisələrlə daha çox bağlıdır. Belə ki, müəssisə dividendlərin vergi nəticələrini həmin keçmiş əməliyyat və hadisələri ilkin olaraq harada tanıdığından asılı olaraq mənfəət və ya zərərdə, digər məcmu gəlirdə və ya kapitalda tanıyır. Müəssisələr düzəlişləri 01 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün erkən könüllü tətbiqə icazə verilməklə tətbiq edir. Müəssisə bu düzəlişləri ilk tətbiq etdikdə, onları müqayisəli dövrün əvvəlində və ya sonra tanınan dividentlərin gəlir vergisi nəticələri ilə əlaqələndirir. Cəmiyyətin hazırkı təcrübəsinin bu düzəlişlərə uyğun olduğu nəzərə alınaraq, Cəmiyyətin maliyyə hesabatlarına təsiri gözlənilmir.

23 saylı MUBS - Borclar üzrə məsrəflər

Düzəlişlər aydınlaşdırır ki, müəssisə, ilkin olaraq müəyyənləşdirilmiş aktivin inkişaf etdirilməsi üçün götürülən borclara aktivin məqsədli istifadə və ya satılmağa hazırlanması üçün zəruri olan bütün fəaliyyətlər başa çatdıqdan sonra ümumi borcların bir hissəsi kimi yanaşır. Müəssisələr bu düzəlişləri tətbiq etdiyi ilk illik hesabat dövründə və ya sonrasında çəkilmiş borc xərclərinə şamil edir. Müəssisələr bu düzəlişləri erkən tətbiqinə icazə verilməklə, 01 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün tətbiq edir. Cəmiyyətin hazırkı təcrübəsinin bu düzəlişlərə uyğun olduğu nəzərə alınaraq, Cəmiyyətin maliyyə hesabatlarına təsiri gözlənilmir.

Plana düzəliş, azalma və ya hesablaşma – 19 saylı MUBS-yə düzəlişlər

19 saylı MUBS-yə edilən düzəlişlər hesabat dövründə rəsmi plana düzəliş, azaldılma və ya hesablaşma baş verdikdə mühasibat uçotunun tənzimlənməsinə yönəldilib. Düzəlişlər, illik hesabat dövründə rəsmi plana düzəliş, azalma və ya hesablaşma baş verdikdə, müəssisə dəyişikliklər edildikdən sonra tətbiq olunan planda müəyyən edilmiş müavinət öhdəliyi (aktivi) və plan aktivlərinin hadisədən sonra yenidən qiymətləndirilməsi məqsədilə aktuari fərziyyələrindən istifadə edərək dövrün qalan hissəsi üçün cari xidmət dəyərini müəyyənləşdirməlidir. Müəssisədən, plan dəyişikliyindən, azaldılmadan və ya hesablaşmadan sonrakı dövrdə plan çərçivəsində təklif olunan müavinət öhdəliyini (aktivi) əks etdirən müəyyənləşdirilmiş mənfəət öhdəliyini (aktiv) istifadə etməklə xalis faizi və xalis müəyyən edilmiş müavinət öhdəliyinin (aktivin) yenidən qiymətləndirilməsi üçün istifadə olunan diskont dərəcəsini müəyyən etmək tələb olunur. Düzəlişlər Cəmiyyətin maliyyə hesabatlarına təsir göstərmir, çünki dövr ərzində hər hansı plan dəyişiklikləri, azalma və ya hesablaşmalar qeydə alınmamışdır.

5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

Dərc olunmuş, lakin hazırda qəbul olunmamış standartlar və şərhlər

Aşağıdakı verilən dərc olunmuş, lakin 31 dekabr 2019-cu il tarixində başa çatan illik hesabat dövrü üçün tətbiqi icbari olmayan yeni və ya dəyişdirilmiş Standartlarının və Şərhlərin Cəmiyyət tərəfindən erkən tətbiqi həyata keçirilməmişdir.

17 saylı MHBS - Sığorta müqavilələri *(Qüvvədə olma tarixi: 01 yanvar 2021-ci il (01 yanvar 2022-ci ilədək uzadıla bilər)*

17 saylı MHBS 2017-ci ilin may ayında 4 saylı MHBS Sığorta Müqavilələri ilə əvəz edilmişdir. Standart hər hesabat dövründə təxminlərin yenidən ölçüldüyü cari ölçmə modelini tələb edir. Müqavilələr aşağıda göstərilən əsaslar vasitəsilə ölçülür:

- diskontlaşdırılmış ehtimal-orta çəkili pul vəsaitlərinin hərəkəti ilə,
- açıq risk tənzimlənməsi ilə və,
- qüvvədə olma müddəti ərzində gəlir kimi tanınan müqavilənin əldə edilməmiş mənfəətini təmsil edən müqavilə üzrə xidmət marjası (MXM).

Standart uçot dərəcələrinin dəyişməsini ya mənfəət və ya zərər haqqında hesabatda ya da birbaşa digər məcmu gəlirdə tanımaq arasında seçim etməyə imkan verir. Əldə olunan qərar sığortaçıların maliyyə aktivlərini 9 saylı MHBS-ə nə dərəcədə uyğun olduğunu əks etdirir. Əlavə olaraq, qeyri-həyat sığortaları üzrə qeyd olunan sadələşdirilmiş mükafat bölgüsü yanaşması, qısa müddətli müqavilələr üçün öhdəlik hüququna icazə verir. Həyat sığortası şirkətləri tərəfindən yazılmış bəzi müqavilələr üçün 'dəyişkən ödəniş haqqı yanaşması' adlanan ümumi ölçü modelində sığorta sahiblərinin əsas maddələrdən əldə olunan gəlirdə iştirak payı tanınır. "Dəyişkən ödəniş haqqı yanaşması" tətbiq edilərkən, əsas maddələrin ədalətli dəyərində olan dəyişikliklərindəki müəssisənin payı MXM-ə daxil edilir. Bu modeldən istifadə edən sığortaçıların nəticələri, ümumi modelə nisbətən daha az dəyişkən olur. Yeni qaydalar, sığorta müqavilələri və ya investisiya müqavilələri dərc edən bütün təşkilatların maliyyə hesabatlarına və əsas fəaliyyət göstəricilərinə təsir edəcəkdir.

Əhəmiyyətlilik meyarı – 1 saylı MUBS-yə və 8 saylı MUBS-yə düzəlişlər *(Qüvvədə olma tarixi: 01 yanvar 2020).*

MUBSK 1 saylı MUBS Maliyyə Hesabatlarının Təqdim Edilməsi və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Maliyyə Hesabatı üçün Konseptual Çərçivə daxilində əhəmiyyətlilik anlayışını sabit şəkildə tərifləndirən 8 saylı MUBS Uçot Siyasəti, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Səhvlərə, məlumatın nə dərəcədə əhəmiyyətli olduğunu dəqiqləşdirən düzəlişləri, eləcə də 1 saylı MUBS-yə əsasən maddi əhəmiyyətli hesab olunmayan məlumatlara dair dəyişiklikləri tətbiq etdi. Düzəlişlər, xüsusilə:

- Gizli məlumatlara dair tövsiyələrin bu məlumatı təqdim etməmə və ya yanlış təqdim etmə hallarının eyni səviyyədə əhəmiyyətli olduğunu və müəssisənin əhəmiyyətliliyi bütövlükdə maliyyə hesabatları kontekstində qiymətləndirdiyini izah edir;
- maliyyə hesabatlarının birbaşa yönəldildiyi "ümumi təyinatlı maliyyə hesabatlarının ilkin istifadəçiləri" ifadəsi maliyyə məlumatlarının əksəriyyəti üçün ümumi məqsədli maliyyə hesabatlarına əsaslanan "mövcud və potensial investor, borcverənlər və digər kreditorlar" olaraq təyin edilir.

Biznesin tərifi - 3 saylı MHBS-yə düzəlişlər *(Qüvvəyə minmə tarixi: 01 yanvar 2020)*

Biznesin tərifinə edilmiş düzəliş birlikdə son məhsulu ərsəyə gətirmək bacarığına malik hərəkətlərin və substantiv prosedurların mövcudluğunu tələb edir. "son məhsul" anlayışına düzəliş müştərilərə təqdim olunan mal və xidmətlərə görə əldə olunan gəlirlər, investisiya gəlirləri və digər gəlir yaradan fəaliyyətlərə diqqəti yönəltməklə yanaşı azalan xərclər və digər kiçik iqtisadi fayda şəklində gəlirləri istisna edir. Düzəlişlərin, aktivlərin alınması kimi uçota alınan daha çox satınalmalara səbəb olacağı ehtimal edilir.

5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

Maliyyə Hesabatı üçün Yenidən işlənmiş Konseptual Əsaslar *(Qüvvəyə minmə tarixi: 01 yanvar 2020)*

Birbaşa təsiri ilə standart tənzimləmə qərarlarında istifadə ediləcək və MUBSK tərəfindən yenidən işlənib nəşr edilmiş Konseptual Əsaslar aşağıdakı əsas dəyişiklikləri ehtiva edir:

- maliyyə hesabatı məqsədi kimi idarəetmənin əhəmiyyətinin artırılması
- neytrallıq komponenti kimi ehtiyatlılığın bərpa edilməsi
- hüquqi şəxs və ya təşkilatın bir hissəsi kimi, hesabat verəcək müəssisənin müəyyənləşdirilməsi
- aktiv və öhdəlik anlayışlarına yenidən baxılması
- tanınma üçün ehtimal həddinin çıxarılması və tanınmanın dayandırılmasına dair təlimat əlavə edilməsi
- müxtəlif ölçü əsasları üzrə təlimat əlavə olunması və
- mənfəət və ya zərərin əsas fəaliyyət göstəricisi olduğunu və prinsip etibarı ilə digər məcmu gəlirlərdəki gəlir və xərclərin maliyyə hesabatlarının aktuallığını və ya etibarlılığını artırdığı hallarda mənfəət və ya zərərdə tanınması

Mövcud mühasibat uçotu standartlarından heç birində dəyişiklik edilməyəcəkdir. Bununla birlikdə, əməliyyatlar, hadisələr və şərtlər üçün uçot siyasətlərini müəyyənləşdirməkdə Konseptual Əsaslara etibar edən təşkilatlar mühasibat uçotu standartları ilə başqa cür əlaqələndirilməyən, yenidən işlənmiş Konseptual Əsasları 2020-ci il 01 yanvar tarixindən tətbiq etməli olacaq. Bu təşkilatlar uçot siyasətlərinin yenidən işlənmiş Konseptual Əsaslara hələ də uyğun olub olmadığını müəyyən etməlidirlər.

İnvestor və onun ortağı və ya müştərək müəssisə arasında aktivlərin satılması və ya əvəzsiz verilməsi - 10 saylı MHBS-yə və 28 saylı MHBS-yə düzəlişlər *(2015-ci ilin dekabr ayında MUBSK bu düzəlişin tətbiqi tarixini MUBSK kapital metodu ilə bağlı tədqiqat layihəsini yekunlaşdıranadək təxirə salmağı qərara aldı.)*

MUBSK 10 saylı MHBS Konsolidə edilmiş maliyyə hesabatlarına və 28 saylı MUBS ortaq və müştərək müəssisələrə investisiya qoyuluşlarına məhdud dəyişikliklər etmişdir. Dəyişikliklər investor və onun ortaq və ya müştərək müəssisələri arasında aktivlərin satışına və ya əvəzsiz ötürülməsinə dair uçot qaydalarını aydınlaşdırır. Onlar təsdiq edir ki, bu zaman uçot siyasəti qeyri-monetar aktivlərin şərikli və ya ortaq müəssisəyə satılması və ya əvəzsiz olaraq verilməsi əməliyyatının "biznes" tərkibli olub olmamasından asılıdır (3 saylı MHBS-də müəyyənləşdirildiyi kimi). Qeyd olunan qeyri-monetar aktivlər biznes tərkiblidirsə, investor aktivlərin satışından və ya əvəzsiz ötürülməsindən mənfəət və ya zərər tanıyacaqdır. Biznesi ehtiva etmirsə, mənfəət və ya zərər investor tərəfindən ortaq və ya müştərək müəssisədəki digər maraqları həddində tanınır. Düzəlişlər prospektiv şəkildə tətbiq olunur.

6. Pul vəsaitləri və onların ekvivalentləri

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Nağd pul	16,278	9,478
Tələbli bank hesabları	478,626	695,671
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**494,904**	**705,149**

31 dekabr 2019-cu il tarixinə pul vəsaitləri və onların ekvivalentləri üzrə kredit riskinin ödəmə qabiliyyəti dərəcələrinə görə təhlili aşağıdakı cədvəldə göstərilir. Cəmiyyətin kredit riskinin təsnifatı sistemi Qeyd 18-də təsvir edilir.

	Müxbir hesablar
- Yüksək dərəcə	99,286
- Orta dərəcə	197,770
- Reytinqsiz banklarda	181,570
Nağd pul çıxılmaqla, cəmi pul vəsaitləri və onların ekvivalentləri	**478,626**

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi məqsədilə pul vəsaitləri və onların ekvivalentləri 1-ci Mərhələyə aid edilmişdir. Bu qalıqlar üzrə gözlənilən kredit zərərlərinin məbləği əhəmiyyətsiz olduğuna görə Cəmiyyət pul vəsaitləri və onların ekvivalentləri üzrə kredit zərərləri üçün ehtiyat yaratmamışdır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi yanaşması Qeyd 18-də göstərilir.

31 dekabr 2018-ci il tarixinə pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

	Müxbir hesablar
- Yüksək dərəcə	688,851
- Orta dərəcə	6,820
-Reytinqsiz banklarda	-
Nağd pul çıxılmaqla, cəmi pul vəsaitləri və onların ekvivalentləri	**695,671**

Yuxarıdakı cədvəldə göstərilən kredit reytinqləri Standard & Poor's agentliyinin reytinqlərinə (belə reytinqlərin mövcud olduğu halda) və ya Standard & Poor's reytinq şkalası üzrə ən yaxın ekvivalentə çevrilmiş Moody's və ya Fitch reytinqlərinə əsaslanır.

Pul vəsaitləri və onların ekvivalentlərinin faiz dərəcələri üzrə təhlili Qeyd 18-də göstərilir.

7. Müştərilərə verilmiş kreditlər və avanslar

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Korporativ kreditlər	100,149	53,961
Fiziki şəxslərə verilmiş istehlak kreditləri	19,868,629	16,957,800
Kredit zərərləri üzrə ehtiyat çıxılmaqla	(908,868)	(1,537,830)
Cəmi amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər və avanslar	**19,059,910**	**15,473,931**

7. Müştərilərə verilmiş kreditlər və avanslar (davamı)

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər və avansların ümumi balans dəyəri və kredit zərərləri üzrə ehtiyatın kateqoriyalar üzrə təhlili aşağıdakı cədvəldə göstərilir:

	31 dekabr 2019-cu il			31 dekabr 2018-ci il		
	Ümumi balans dəyəri	Kredit zərərləri üzrə ehtiyat	Balans dəyəri	Ümumi balans dəyəri	Kredit zərərləri üzrə ehtiyat	Balans dəyəri
Korporativ müştərilərə verilmiş kreditlər						
Korporativ kreditlər	100,149	(565)	99,584	53,961	(718)	53,243
Fiziki şəxlərə verilmiş kreditlər						
İstehlak kreditləri	19,868,629	(908,303)	18,960,326	16,957,800	(1,537,112)	15,420,688
Cəmi amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər və avanslar	**19,968,778**	**(908,868)**	**19,059,910**	**17,011,761**	**(1,537,830)**	**15,473,931**

Hesabat dövrünün əvvəli və sonu arasındakı müddətdə amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər və avanslar üçün kredit zərərləri üzrə ehtiyatda və ümumi balans dəyərində dəyişikliklər aşağıdakı cədvəldə göstərilir:

7. Müştərilərə verilmiş kreditlər və avanslar (davamı)

	Kredit zərərləri üzrə ehtiyat				Ümumi balans dəyəri			
	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi
Korporativ kreditlər								
01 yanvar 2019-cu il tarixinə	**718**	**-**	**-**	**718**	**53,961**	**-**	**-**	**53,961**
Dövr üzrə kredit zərərləri üçün ehtiyata təsir edən dəyişikliklər:								
Köçürmələr:								
- bütöv müddət üçün gözlənilən kredit zərərinə (1-ci Mərhələdən 2-ci Mərhələyə)	-	-	-	-	-	-	-	-
- dəyərsizləşmiş aktivlərə (1-ci və 2-ci Mərhələdən 3-cü Mərhələyə)	-	-	-	-	-	-	-	-
- 12 aylıq gözlənilən kredit zərərinə (2-ci və 3-cü Mərhələdən 1-ci Mərhələyə)	-	-	-	-	-	-	-	-
Yeni yaradılmış və ya alınmış	-	-	-	-	74,555	-	-	74,555
Dövr ərzində tanınması dayandırılmış	(153)	-	-	(153)	(17,713)	-	-	(17,713)
Hesablanmış faizlərdə dəyişikliklər	-	-	-	-	172	-	-	172
Digər hərəkətlər	-	-	-	-	(10,826)	-	-	(10,826)
Dövr üzrə kredit zərərləri üçün ehtiyat ayırmalarına təsir edən cəmi dəyişikliklər	**(153)**	**-**	**-**	**(153)**	**46,188**	**-**	**-**	**46,188**
31 dekabr 2019-cu il tarixinə	**565**	**-**	**-**	**565**	**100,149**	**-**	**-**	**100,149**

7. Müştərilərə verilmiş kreditlər və avanslar (davamı)

	Kredit zərərləri üzrə ehtiyat				Ümumi balans dəyəri			
	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi
Korporativ kreditlər								
01 yanvar 2018-ci il tarixinə	**473**	**-**	**-**	**473**	**38,573**	**-**	**-**	**38,573**
Dövr üzrə kredit zərərləri üçün ehtiyata təsir edən dəyişikliklər:								
Köçürmələr:								
- bütöv müddət üçün gözlənilən kredit zərərinə (1-ci Mərhələdən 2-ci Mərhələyə)	-	-	-	-	-	-	-	-
- dəyərsizləşmiş aktivlərə (1-ci və 2-ci Mərhələdən 3-cü Mərhələyə)	-	-	-	-	-	-	-	-
- 12 aylıq gözlənilən kredit zərərinə (2-ci və 3-cü Mərhələdən 1-ci Mərhələyə)	-	-	-	-	-	-	-	-
Yeni yaradılmış və ya alınmış	718	-	-	718	52,782	-	-	52,782
Dövr ərzində tanınması dayandırılmış	(473)	-	-	(473)	(38,573)	-	-	(38,573)
Hesablanmış faizlərdə dəyişikliklər	-	-	-	-	1,179	-	-	1,179
Digər hərəkətlər	-	-	-	-	-	-	-	-
Dövr üzrə kredit zərərləri üçün ehtiyat ayırmalarına təsir edən cəmi dəyişikliklər	**245**	**-**	**-**	**245**	**15,388**	**-**	**-**	**15,388**
31 dekabr 2018-ci il tarixinə	**718**	**-**	**-**	**718**	**53,961**	**-**	**-**	**53,961**

7. Müştərilərə verilmiş kreditlər və avanslar (davamı)

	Kredit zərərləri üzrə ehtiyat				Ümumi balans dəyəri			
	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi
İstehlak kreditləri								
01 yanvar 2019-cu il tarixinə	**169,576**	**3,024**	**1,364,512**	**1,537,112**	**14,704,535**	**7,759**	**2,245,506**	**16,957,800**
Dövr üzrə kredit zərərləri üçün ehtiyata təsir edən dəyişikliklər:								
Köçürmələr:								
- bütöv müddət üçün gözlənilən kredit zərərinə (1-ci Mərhələdən 2-ci Mərhələyə)	(13,385)	80,916	(367,107)	(299,576)	(4,266,307)	4,266,307	-	-
- dəyərsizləşmiş aktivlərə (1-ci və 2-ci Mərhələdən 3-cü Mərhələyə)	(49,561)	(3,024)	424,562	371,977	-	-	-	-
- 12 aylıq gözlənilən kredit zərərinə (2-ci və 3-cü Mərhələdən 1-ci Mərhələyə)	19,505	-	(197,743)	(178,238)	134,910	-	(134,910)	-
Yeni yaradılmış və ya alınmış	3,865	24,728	157,452	186,045	9,779,275	1,227,659	474,814	11,481,748
Dövr ərzində tanınması dayandırılmış	(62,241)	-	(59,286)	(121,527)	(7,297,787)	(610,590)	(815,546)	(8,723,923)
Hesablanmış faizlərdə dəyişikliklər	-	-	-	-	(114,924)	15,088	252,840	153,004
Digər hərəkətlər	(44,008)	-	(543,482)	(587,490)	-	-	-	-
Dövr üzrə kredit zərərləri üçün ehtiyat ayırmalarına təsir edən cəmi dəyişikliklər	**(145,825)**	**102,620**	**(585,604)**	**(628,809)**	**(1,764,833)**	**4,898,464**	**(222,802)**	**2,910,829**
31 dekabr 2019-cu il tarixinə	**23,751**	**105,644**	**778,908**	**908,303**	**12,939,702**	**4,906,223**	**2,022,704**	**19,868,629**

7. Müştərilərə verilmiş kreditlər və avanslar (davamı)

	Kredit zərərləri üzrə ehtiyat				Ümumi balans dəyəri			
	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsiz-ləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi
İstehlak kreditləri								
01 yanvar 2018-ci il tarixinə	**123,372**	**-**	**1,328,756**	**1,452,128**	**10,769,264**	**-**	**1,573,290**	**12,342,554**
Dövr üzrə kredit zərərləri üçün ehtiyata təsir edən dəyişikliklər:								
Köçürmələr:								
- bütöv müddət üçün gözlənilən kredit zərərinə (1-ci Mərhələdən 2-ci Mərhələyə)	(369)	3,024	-	2,655	(57,197)	57,197	-	-
- dəyərsizləşmiş aktivlərə (1-ci və 2-ci Mərhələdən 3-cü Mərhələyə)	(5,031)	-	537,140	532,109	(936,027)	-	936,027	-
- 12 aylıq gözlənilən kredit zərərinə (2-ci və 3-cü Mərhələdən 1-ci Mərhələyə)	1,150	-	(135,210)	(134,060)	159,442	-	(159,442)	-
Yeni yaradılmış və ya alınmış	85,734	-	16,177	101,911	7,865,332	-	17,501	7,882,833
Dövr ərzində tanınması dayandırılmış	(22,062)	-	(17,290)	(39,352)	(3,523,411)	(37,275)	(276,328)	(3,837,014)
Hesablanmış faizlərdə dəyişikliklər	-	-	-	-	427,132	(12,164)	154,458	569,426
Digər hərəkətlər	(13,218)	-	(365,061)	(378,279)	-	-	-	-
Dövr üzrə kredit zərərləri üçün ehtiyat ayırmalarına təsir edən cəmi dəyişikliklər	**46,204**	**3,024**	**35, 756**	**84,984**	**3,935,271**	**7,758**	**672,216**	**4,615,245**
31 dekabr 2018-ci il tarixinə	**169,576**	**3,024**	**1,364,512**	**1,537,112**	**14,704,535**	**7,758**	**2,245,506**	**16,957,800**

7. Müştərilərə verilmiş kreditlər və avanslar (davamı)

Dövr ərzində müştərilərə verilmiş kreditlər və avanslar üzrə kredit zərərləri üçün ehtiyata müxtəlif amillər təsir göstərir və gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi haqqında məlumat Qeyd 18-də göstərilir. Əsas dəyişikliklər aşağıdakı cədvəldə təqdim edilir:

- Dövr ərzində kredit riskinin əhəmiyyətli dərəcədə artması (və ya azalması) və ya dəyərsizləşməsi və sonradan 12 aylıq və bütöv müddət üçün gözlənilən kredit zərərlərinin artması (və ya azalması) səbəbindən 1-ci, 2-ci və 3-cü Mərhələlər arasında köçürmələr;
- Dövr ərzində tanınmış yeni maliyyə alətləri üzrə əlavə ehtiyatların hesablanması, eləcə də dövr ərzində maliyyə alətlərinin tanınmasının dayandırılması nəticəsində ehtiyatın azaldılması;

Aşağıdakı cədvəldə amortizasiya olunmuş dəyərdə qeydə alınan və GKZ üzrə ehtiyat tanınan müştərilərə verilmiş kreditlər və avanslar ilə bağlı kredit riskinin təhlili göstərilir. Müştərilərə verilmiş kreditlər və avansların balans dəyəri, həmçinin bu aktivlər üzrə Cəmiyyətin məruz qaldığı kredit riskinin maksimal dərəcəsini əks etdirir.

31 dekabr 2019-cu il tarixinə korporativ müştərilərə verilmiş amortizasiya olunmuş dəyərdə qeydə alınan kreditlərin kredit keyfiyyəti üzrə təhlili aşağıdakı cədvəldə göstərilir:

	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi
Korporativ kreditlər				
- Ən yüksək dərəcə	100,149	-	-	**100,149**
- Yüksək dərəcə	-	-	-	-
- Orta dərəcə	-	-	-	-
- Xüsusi monitorinq tələb edir	-	-	-	-
- Defolt	-	-	-	-
Ümumi balans dəyəri	**100,149**	-	-	**100,149**
Kredit zərərləri üzrə ehtiyat	(565)	-	-	**(565)**
Balans dəyəri	**99,584**	-	-	**99,584**

31 dekabr 2018-ci il tarixinə korporativ müştərilərə verilmiş amortizasiya olunmuş dəyərdə qeydə alınan kreditlərin kredit keyfiyyəti üzrə təhlili aşağıdakı cədvəldə göstərilir:

	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi
Korporativ kreditlər				
- Ən yüksək dərəcə	-	-	-	-
- Yüksək dərəcə	53,961	-	-	**53,961**
- Orta dərəcə	-	-	-	-
- Xüsusi monitorinq tələb edir	-	-	-	-
- Defolt	-	-	-	-
Ümumi balans dəyəri	**53,961**	-	-	**53,961**
Kredit zərərləri üzrə ehtiyat	(718)	-	-	**(718)**
Balans dəyəri	**53,243**	-	-	**53,243**

7. Müştərilərə verilmiş kreditlər və avanslar (davamı)

31 dekabr 2019-cu il tarixinə fiziki şəxslərə verilmiş amortizasiya olunmuş dəyərdə qeydə alınan kreditlərin kredit keyfiyyəti üzrə təhlili aşağıdakı cədvəldə göstərilir:

	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi
İstehlak kreditləri				
- Ən yüksək dərəcə	12,939,702	-	-	**12,939,702**
- Yüksək dərəcə	-	-	-	**-**
- Orta dərəcə	-	4,906,223	-	**4,906,223**
- Xüsusi monitorinq tələb edir	-	-	2,022,704	**2,022,704**
- Defolt	-	-	-	**-**
Ümumi balans dəyəri	**12,939,702**	**4,906,223**	**2,022,704**	**19,868,629**
Kredit zərərləri üzrə ehtiyat	(23,751)	(105,644)	(778,908)	**(908,303)**
Balans dəyəri	**12,915,951**	**4,800,579**	**1,243,796**	**18,960,326**

Yuxarıdakı cədvəllərdə istifadə olunan ödəmə qabiliyyəti dərəcələri üzrə kredit riskinin təsnifatı sistemi haqqında məlumat Qeyd 18-də göstərilir.

31 dekabr 2018-ci il tarixinə fiziki şəxslərə verilmiş amortizasiya olunmuş dəyərdə qeydə alınan kreditlərin kredit keyfiyyəti üzrə təhlili aşağıdakı cədvəldə göstərilir:

	1-ci Mərhələ (12 aylıq GKZ)	2-ci Mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)	3-cü Mərhələ (dəyərsizləşmiş aktivlər üzrə bütöv müddət üçün GKZ)	Cəmi
İstehlak kreditləri				
- Ən yüksək dərəcə	1,192,560	-	-	**1,192,560**
- Yüksək dərəcə	13,454,402	-	-	**13,454,403**
- Orta dərəcə	57,573	7,758	-	**65,331**
- Xüsusi monitorinq tələb edir	-	-	422,639	**422,639**
- Defolt	-	-	1,822,867	**1,822,867**
Ümumi balans dəyəri	**14,704,535**	**7,758**	**2,245,506**	**16,957,800**
Kredit zərərləri üzrə ehtiyat	(169,576)	(3,024)	(1,364,512)	**(1,537,112)**
Balans dəyəri	**14,534,960**	**4,734**	**880,994**	**15,420,688**

7. Müştərilərə verilmiş kreditlər və avanslar (davamı)

Kreditlər üzrə təminatın alınması ilə bağlı Cəmiyyətin siyasəti hesabat dövrü ərzində əhəmiyyətli dərəcədə dəyişməmiş və əvvəlki dövrdən etibarən Cəmiyyətin saxladığı təminatın ümumi keyfiyyətində ciddi dəyişiklik olmamışdır. 31 dekabr 2019-cu il tarixinə hüquqi və fiziki şəxslərə verilmiş amortizasiya olunmuş dəyərdə qeydə alınan kreditlər üzrə təminat haqqında məlumat aşağıda göstərilir:

	Korporativ kreditlər	İstehlak kreditləri
Girovla təmin edilmiş kreditlər:		
- daşınmaz əmlak	96,267	13,882,564
- daşınar əmlak	-	119,143
- istiqrazlar	-	44,711
- qiymətli metal	-	1,364,959
Cəmi	**96,267**	**15,411,377**
Təminatsız kreditlər	3,882	4,457,252
Cəmi müştərilərə verilən amortizasiya olunmuş dəyərlə ölçülən kreditlər və avansların ümumi dəyəri (amortizasiya olunmuş dəyərlə ölçülən hər bir kredit kateqoriyası üzrə kredit riskini əks etdirən məbləğ)	**100,149**	**19,868,629**

31 dekabr 2018-ci il tarixinə girov təminatı haqqında məlumat aşağıda göstərilir:

	Korporativ kreditlər	İstehlak kreditləri
Girovla təmin edilmiş kreditlər:		
- daşınmaz əmlak	47,280	12,363,202
- istiqrazlar	-	72,704
- qiymətli metal	-	1,837,418
Cəmi	**47,280**	**14,273,324**
Təminatsız kreditlər	6,681	2,684,476
Cəmi müştərilərə verilən amortizasiya olunmuş dəyərlə ölçülən kreditlər və avansların ümumi dəyəri (amortizasiya olunmuş dəyərlə ölçülən hər bir kredit kateqoriyası üzrə kredit riskini əks etdirən məbləğ)	**53,961**	**16,957,800**

8. Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər

	Mebel və digər avadanlıqlar	Kompüter və rabitə avadanlıqları	Nəqliyyat vasitələri	Digər əsas vəsaitlər	İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri	Qeyri-maddi aktivlər	Cəmi
01 yanvar 2018-ci il tarixinə ilkin dəyər	38,699	99,113	-	-	11,437	173,645	322,894
Yığılmış köhnəlmə/amortizasiya	(10,974)	(43,418)	-	-	-	(27,722)	(82,114)
01 yanvar 2018-ci il tarixinə balans dəyəri	**27,725**	**55,695**	**-**	**-**	**11,437**	**145,923**	**240,780**
Əlavələr	60,229	82,375	8,500	4,335	112,424	155,600	423,463
Köhnəlmə/amortizasiya xərci	(13,035)	(33,727)	(268)	(533)	(2,851)	(18,871)	(69,285)
31 dekabr 2018-ci il tarixinə balans dəyəri	**74,919**	**104,343**	**8,232**	**3,802**	**121,010**	**282,652**	**594,958**
01 yanvar 2019-cu il tarixinə balans dəyəri	**74,919**	**104,343**	**8,232**	**3,802**	**121,010**	**282,652**	**594,958**
Əlavələr	22,021	53,058	-	-	20,531	633,260	728,870
Köhnəlmə/amortizasiya xərci	(24,747)	(48,149)	(2,106)	(1,075)	(31,895)	(53,433)	(161,405)
31 dekabr 2019-cu il tarixinə balans dəyəri	**72,193**	**109,252**	**6,126**	**2,727**	**109,646**	**862,479**	**1,162,423**
31 dekabr 2019-cu il tarixinə ilkin dəyər	120,949	234,545	8,500	4,335	144,392	962,505	1,475,226
Yığılmış köhnəlmə/amortizasiya	(48,756)	(125,293)	(2,374)	(1,608)	(34,746)	(100,026)	(312,803)
31 dekabr 2019-cu tarixinə balans dəyəri	**72,193**	**109,252**	**6,126**	**2,727**	**109,646**	**862,479**	**1,162,423**

31 dekabr 2019-cu il və 2018-ci il tarixinə qeyri-maddi aktivlər əsasən bank əməliyyatlarının həyata keçirilməsində istifadə olunan proqram təminatı üzrə lisenziya və modullardan ibarətdir.İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri Göyçay və Qazaxda yeni açılmış filialların təmir və istismar xərclərindən ibarətdir.

9. Sair aktivlər

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Amortizasiya olunmuş dəyərdə qeydə alınan sair maliyyə aktivləri		
Məhdudiyyət qoyulmuş pul vəsaitləri	5,372,000	2,890,000
Cəmi amortizasiya olunmuş dəyərdə qeydə alınan sair maliyyə aktivləri	**5,372,000**	**2,890,000**
Sair qeyri-maliyyə aktivləri		
Cəmiyyətin mülkiyyətinə keçmiş girov	2,515,204	1,613,894
Verilmiş avanslar	304,851	32,753
Sair	153,748	45,980
Cəmi sair qeyri-maliyyə aktivləri	**2,973,803**	**1,692,627**
Cəmi sair aktivlər	**8,345,803**	**4,582,627**

Məhdudiyyət qoyulmuş pul vəsaitləri Cəmiyyətin yerli banklardakı müxbir hesablarında yerləşdirdiyi xarici valyutada olan qalıqları əks etdirir. Cəmiyyət öz fəaliyyətini maliyyələşdirmək məqsədilə bu vəsaitlərdən istifadə edə bilməz. Cəmiyyət məhdudiyyət qoyulmuş pul vəsaitlərinin əvəzinə həmin banklardan milli valyutada kreditlər cəlb etmişdir. Qeyd 10-a baxın.

Cəmiyyətin mülkiyyətinə keçmiş girovlar vaxtı keçmiş kreditlərlə bağlı Cəmiyyət tərəfindən əldə edilmiş daşınmaz əmlak aktivlərindən ibarətdir. Cəmiyyət həmin aktivləri yaxın gələcəkdə satmağı proqnozlaşdırır. Bu aktivlər satış üçün nəzərdə tutulan uzunmüddətli aktivlər anlayışına cavab vermir və 2 saylı MUBS "Mal-material ehtiyatları" standartına uyğun olaraq ehtiyatlar kimi təsnifləşdirilir. Həmin aktivlər əldə edildiyi zaman ilkin olaraq ədalətli dəyərdə tanınmışdır.

Aşağıdakı cədvəldə ticarət debitor borcları istisna olmaqla, amortizasiya olunmuş dəyərdə qeydə alınan sair maliyyə aktivləri ilə bağlı kredit riskinin təhlili göstərilir. 31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə amortizasiya olunmuş dəyərdə qeydə alınan sair maliyyə aktivlərinin balans dəyəri, həmçinin bu aktivlər üzrə Cəmiyyətin məruz qaldığı kredit riskinin maksimal dərəcəsini əks etdirir:

	1-ci Mərhələ (12 aylıq GKZ)
Məhdudiyyət qoyulmuş pul vəsaitləri	
Yüksək dərəcə	5,372,000
Ümumi balans dəyəri	**5,372,000**
Kredit zərərləri üzrə ehtiyat	-
Balans dəyəri	**5,372,000**

	1-ci Mərhələ (12 aylıq GKZ)
Məhdudiyyət qoyulmuş pul vəsaitləri	
Yüksək dərəcə	2,890,000
Ümumi balans dəyəri	**2,890,000**
Kredit zərərləri üzrə ehtiyat	-
Balans dəyəri	**2,890,000**

9. Sair aktivlər (davamı)

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi məqsədilə məhdudiyyət qoyulmuş pul vəsaitləri 1-ci Mərhələyə daxil edilmişdir. Bu qalıqlar üzrə gözlənilən kredit zərərlərinin məbləği əhəmiyyətsiz olduğuna görə Cəmiyyət məhdudiyyət qoyulmuş pul vəsaitləri üzrə kredit zərərləri üçün ehtiyat yaratmamışdır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üzrə yanaşma Qeyd 18-də təqdim edilir.

10. Müddətli borc öhdəlikləri

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Paşa Bank ASC	5,388,450	2,555,940
Dunwich FZE	1,703,008	1,782,734
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi	516,104	415,274
Azər-Türk Bank ASC	-	263,533
Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu	43,823	12,950
Mərkəzi Bank	21,421	-
Cəmi müddətli borc öhdəlikləri	**7,672,806**	**5,030,431**

31 dekabr 2019-cu il və 2018-ci il tarixlərinə borc öhdəlikləri əsas borc və hesablanmış ödəniləcək faizlərdən ibarətdir.

18 dekabr 2014-cü il tarixində "Dunwich FZE" təşkilatı Cəmiyyətə 12 ay müddətinə illik 15% dərəcəsi ilə 300,000 ABŞ dolları (235,320 AZN) məbləğində kredit ayırmışdır. Həmin kredit müqaviləsinin müddəti 6 noyabr 2019-cu il tarixinədək uzadılmışdır. 4 noyabr 2015-ci il tarixində Cəmiyyət "Dunwich FZE" təşkilatı ilə 12 ay müddətinə illik 15% dərəcəsi ilə 650,000 ABŞ dolları (1,105,065 AZN) məbləğində yeni kredit müqaviləsi imzalamışdır. Həmin kredit müqaviləsinin müddəti 28 dekabr 2019-cu il tarixinədək uzadılmışdır.

"Paşa Bank" ASC-dən 10 yanvar 2019 (263,000 AZN) və 24 yanvar 2019-cu il və 12 dekabr 2019-cu il tarixləri ərzində (ümumi məbləği 3,748,500 AZN) 8 kredit götürülmüşdür. Kreditlərin ödəmə müddəti 1 il, illik faiz dərəcəsi isə müvafiq olaraq 7% və 8% təşkil edir. "AzərTürk Bank" ASC-dən isə 09 yanvar 2019-cu il tarixində 78,000 AZN) və Mərkəzi Bankdan 12 dekabr 2019-cu il tarixində (21,420 AZN) cəlb edilmiş kreditlərin ödəmə müddəti müvafiq olaraq 1 il və 5 il, illik faiz dərəcəsi isə 7% və 0.1% təşkil edir. "Yelo Bank" ASC-dən 23 yanvar 2019-cu il tarixində (595,000 AZN) və 26 aprel 2019-cu il tarixində (212,500 AZN) cəlb edilmiş kreditlərin illik faiz dərəcəsi 7% təşkil edir.

Cəmiyyət "Paşa Bank" ASC və "AzərTürk Bank" ASC-dən alınmış kreditlərin əvəzində pul şəklində girov qoymuşdur (Qeyd 9). Yuxarıda qeyd olunan digər kreditlər üçün Cəmiyyət tərəfindən hər hansı girov qoyulmamışdır.

Bundan əlavə, yuxarıda qeyd olunan kredit müqavilələrində hər hansı xüsusi maliyyə və qeyri-maliyyə şərtləri nəzərdə tutulmur.

Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondundan ("SİF") və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyindən alınmış kreditlərin ödəmə müddəti 3 il, illik faiz dərəcəsi isə müvafiq olaraq 1% və 2% təşkil edir. Rəhbərlik həmin kreditlər üzrə faiz dərəcələrinin SİF və Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Azərbaycan Respublikasında fəaliyyət göstərən yerli banklara verilmiş kreditlərin faiz dərəcələrinə bərabər olduğunu hesab edir. Cəmiyyət SİF və Kənd Təsərrüfatı Nazirliyinin vəsaitləri hesabına güzəştli kreditlər almaq istəyən sahibkarlıq subyektləri arasında vasitəçi kimi çıxış edir və SİF və Kənd Təsərrüfatı Nazirliyi tərəfindən investisiya layihələri müsbət qiymətləndirilmiş sahibkarlıq subyektlərinə kreditlər ayırır. Cəmiyyət sahibkarlıq subyektlərinə kreditləri müvafiq olaraq 6% və 7% dərəcəsi ilə təqdim edir.

10. Müddətli borc öhdəlikləri (davamı)

31 dekabr 2019-cu il tarixinə müddətli borc öhdəliklərinin qısamüddətli və uzunmüddətli hissəsi müvafiq olaraq 7,330,479 AZN və 342,327 AZN təşkil etmişdir.

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərində başa çatan illər üzrə borc öhdəlikləri üzrə faizlər bazar faiz dərəcələrinə uyğun olmuşdur. 31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə müddətli borc öhdəliklərinin balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabər olmuşdur.

Müddətli borc öhdəliklərinin coğrafi, valyuta, eləcə də ödəmə müddətləri və faiz dərəcələri üzrə təhlili Qeyd 19-da göstərilir.

11. Buraxılmış borc qiymətli kağızlar

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Veksellər	170,332	4,476,189
Daxili bazarda buraxılmış istiqrazlar	1,055,603	316,136
Cəmi buraxılmış borc qiymətli kağızlar	**1,225,935**	**4,792,325**

İstiqrazların tədavül müddəti 5 il, illik faiz dərəcəsi isə illik 9% olmaqla, rublük ödənilir.

Veksellərin ödəniş müddəti 3 il, illik faiz dərəcəsi isə 14% təşkil edir.

Korporativ istiqrazlar və veksellər üzrə qalıqlara əsas borc və hesablanmış faizlər daxildir.

31 dekabr 2019-cu il tarixinə borc qiymətli kağızların qısa və uzunmüddətli hissələri müvafiq olaraq 406,109 AZN və 819,826 AZN təşkil etmişdir.

Buraxılmış borc qiymətli kağızların ədalətli dəyəri haqqında məlumat üçün Qeyd 21-ə baxın. Buraxılmış borc qiymətli kağızların faiz dərəcəsi üzrə təhlili Qeyd 18-də göstərilir. Əlaqəli tərəflər üçün buraxılmış borc qiymətli kağızlar haqqında məlumat Qeyd 22-də açıqlanır.

12. Sair öhdəliklər

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Buraxılmaqda olan veksellər	14,873,708	10,590,875
Sair öhdəliklər	37,846	15,621
Cəmi sair öhdəliklər	**14,911,554**	**10,606,496**

Cəmiyyət fiziki şəxslərə 37 ədəd (2018: 85 ədəd) sadə veksel buraxmışdır. Həmin veksellər Azərbaycan Respublikasının Mərkəzi Bank tərəfindən qeydiyyata alınma prosesindədir. Bu veksellərin ödəmə müddəti 1-5 il, illik faiz dərəcəsi isə 10-23% təşkil edir və qeydiyyata alındıqdan sonra buraxılmış borc qiymətli kağızlar kateqoriyasında veksellər kimi təsnifləşdiriləcəkdir.

13. Nizamnamə kapitalı

Cəmiyyətin təsdiq edilmiş nizamnamə kapitalı bir səhmin nominal dəyəri 10 AZN olan 485.5 min ədəd adi səhmdən ibarətdir (2018: bir səhmin nominal dəyəri 10 AZN olan 100 min ədəd adi səhm).

14. Faiz gəlirləri və xərcləri

	31 dekabr 2019-cu il tarixində başa çatan il	31 dekabr 2018-ci il tarixində başa çatan il
Effektiv faiz metodu ilə hesablanmış faiz gəlirləri		
Müştərilərə verilmiş amortizasiya olunmuş dəyərdə qeydə alınan kreditlər və avanslar	4,785,410	3,450,109
Cəmi effektiv faiz metodu ilə hesablanmış faiz gəlirləri	**4,785,410**	**3,450,109**
Faiz xərcləri		
Müddətli borc öhdəlikləri	(642,065)	(342,212)
Korporativ istiqrazlar	(19,741)	(42,672)
Veksellər	(2,342,994)	(1,772,793)
Cəmi faiz xərcləri	**(3,004,800)**	**(2,157,677)**
Xalis faiz gəlirləri	**1,780,610**	**1,292,432**

15. İnzibati və sair əməliyyat xərcləri

	Qeyd	31 dekabr 2019-cu il tarixində başa çatan il	31 dekabr 2018-ci il tarixində başa çatan il
İşçi heyəti ilə bağlı xərclər		(696,572)	(548,301)
Peşəkar xidmətlər		(462,432)	(280,026)
İcarə xərcləri		(126,963)	(106,383)
Əmlak və avadanlıqlar üzrə köhnəlmə xərcləri	8	(107,972)	(50,414)
Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri	8	(53,433)	(18,871)
Xidmət haqqı		(26,008)	(13,148)
Rabitə xərcləri		(23,332)	(13,114)
Mətbəə xərcləri		(19,226)	(30,341)
Təmir və texniki xidmət xərcləri		(13,524)	(5,889)
Sair		(180,956)	(112,164)
Cəmi inzibati və sair əməliyyat xərcləri		**(1,710,418)**	**(1,178,651)**

İşçi heyəti ilə bağlı xərclərə 94,239 AZN (2018: 98,298 AZN) məbləğində sosial sığorta ödənişləri daxildir.

16. Mənfəət vergisi

(a) Mənfəət vergisi xərcinin komponentləri

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

	31 dekabr 2019-cu il tarixində başa çatan il	31 dekabr 2018-ci il tarixində başa çatan il
Cari vergilər	174,291	121,745
Təxirə salınmış vergilər	93,293	(92,558)
İl üzrə mənfəət vergisi xərci	**267,584**	**29,187**

(b) Mənfəət vergisi xərci ilə mənfəət və ya zərərin qanunvericiliklə müəyyən edilmiş müvafiq vergi dərəcəsinə olan hasilinin üzləşdirilməsi

2019-cu il və 2018-ci il tarixləri ərzində Cəmiyyətə tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% təşkil etmişdir. Gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin üzləşdirilməsi aşağıda göstərilir.

	31 dekabr 2019-cu il tarixində başa çatan il	31 dekabr 2018-ci il tarixində başa çatan il
Vergidən əvvəlki mənfəət	**616,907**	**48,567**
Qanunvericiliklə müəyyən edilmiş 20% dərəcə ilə hesablanmalı olan mənfəət vergisi xərci	123,381	9,713
Vergi məqsədləri üçün çıxılmayan xərclərin və ya vergiyə cəlb edilməyən gəlirlərin vergi effekti:		
- Tanınmamış digər potensial təxirə salınmış vergi aktivləri	144,203	19,474
- Gəlirdən çıxılmayan xərclər	-	-
İl üzrə mənfəət vergisi xərci	**267,584**	**29,187**

(c) Müvəqqəti fərqlərin növləri üzrə təxirə salınmış vergilərin təhlili

MHBS və Azərbaycan Respublikasının yerli vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə aktiv və öhdəliklərin balans dəyəri arasında müvəqqəti fərqlər əmələ gəlir.

Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir və 20% (2018: 20%) dərəcəsində qeydə alınır.

	01 yanvar 2019	Mənfəət və ya zərərə gəlir kimi yazılmışdır	31 dekabr 2019
Vergi bazasını azaldan müvəqqəti fərqlərin vergi effekti			
Müştərilərə verilmiş kreditlər və avanslar	51,583	22,170	73,753
Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər	(20,492)	(115,463)	(135,955)
Sair aktivlər	117,819	-	117,819
Təxirə salınmış xalis vergi aktivi	**148,910**	**(93,293)**	**55,617**
Tanınmış təxirə salınmış vergi aktivi	31,091	24,526	55,617
Tanınmış təxirə salınmış vergi öhdəliyi	117,819	(117,819)	-
Təxirə salınmış xalis vergi aktivi	**148,910**	**(93,293)**	**55,617**

16. Mənfəət vergisi (davamı)

31 dekabr 2018-ci il tarixində başa çatan il üçün müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

	01 yanvar 2018	Mənfəət və ya zərərə gəlir kimi yazılmışdır	31 dekabr 2018
Vergi bazasını azaldan müvəqqəti fərqlərin vergi effekti			
Müştərilərə verilmiş kreditlər və avanslar	79,508	(27,925)	51,583
Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər	4,228	(24,720)	(20,492)
Sair aktivlər	(27,383)	145,202	117,819
Təxirə salınmış xalis vergi aktivi	**56,353**	**92,557**	**148,910**
Tanınmış təxirə salınmış vergi aktivi	83,736	65,174	148,910
Tanınmış təxirə salınmış vergi öhdəliyi	(27,383)	27,383	-
Təxirə salınmış xalis vergi aktivi	**56,353**	**92,557**	**148,910**

17. Maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərdə dəyişikliklər

Təqdim olunan hər bir dövr üzrə Cəmiyyətin maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərində dəyişikliklər aşağıdakı cədvəldə göstərilir. Bu öhdəliklər pul vəsaitlərinin hərəkəti haqqında hesabatda maliyyələşdirmə fəaliyyətinin tərkibində qeydə alınır.

	Maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər				
	Müddətli borclar	Korporativ istiqrazlar	Veksellər	Sair öhdəliklər (qeydiyyatdan keçməmiş veksellər)	Cəmi
01 yanvar 2018-ci il tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər	**1,769,072**	**707,011**	**7,381,453**	**2,343,951**	**12,201,487**
Pul vəsaitlərinin hərəkəti	3,222,220	(476,028)	-	5,400,588	8,146,780
Ödənilmiş faizlər	(266,929)	(42,506)	(1,015,130)	(739,460)	(2,064,025)
Sair nağdsız dəyişikliklər	306,068	127,659	(1,890,134)	3,585,795	2,129,388
31 dekabr 2018-ci il tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər	**5,030,431**	**316,136**	**4,476,189**	**10,590,874**	**20,413,630**
Pul vəsaitlərinin hərəkəti	2,692,802	727,674	-	4,473,996	7,894,472
Ödənilmiş faizlər	(686,618)	(7,948)	(532,889)	(473,190)	(1,700,645)
Sair nağdsız dəyişikliklər	636,191	19,741	(3,772,968)	282,028	(2,835,008)
31 dekabr 2019-cu il tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər	**7,672,806**	**1,055,603**	**170,332**	**14,873,708**	**23,772,449**

18. Maliyyə risklərinin idarə edilməsi

Risklərin idarə edilməsi maliyyə (kredit, bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinin idarə edilməsinin əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

Kredit riski

Maliyyə aləti ilə əməliyyatlar üzrə tərəflərdən biri müqavilə öhdəliyini yerinə yetirmədikdə və bu, digər tərəfin maliyyə zərəri çəkməsinə səbəb olduqda, Cəmiyyət kredit riskinə məruz qalır.

Kredit riski Cəmiyyətin qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır.

Cəmiyyətin məruz qaldığı kredit riskinin maksimal səviyyəsi maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyərində əks etdirilir. Təqdim edilmiş maliyyə zəmanətləri üçün maksimal kredit riski öhdəliyin məbləğini əks etdirir.

Kredit riskin idarəedilməsi

Kredit riski Cəmiyyətin biznesi üçün yeganə əhəmiyyətli riskdir. Buna görə, rəhbərlik kredit riskinin idarə edilməsinə xüsusi diqqət yetirir.

Kredit riskinin bazar şəraitindən, gələcək pul axınlarından və zamandan asılı olaraq dəyişməsinə görə risklərin idarə edilməsi məqsədilə qiymətləndirilməsi mürəkkəb prosesdir və modellərin istifadəsini tələb edir. Aktivlər portfeli üzrə kredit riskinin qiymətləndirilməsi defoltun baş vermə ehtimalına, müvafiq zərər əmsallarına və kontragentlər arasında defolt vəziyyətlərinin korrelyasiyası ilə bağlı əlavə təxminləri tələb edir.

Limitlər

Cəmiyyət məruz qaldığı kredit riskinə bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə limitlər müəyyən etməklə nəzarət edir. Belə risklərə mütəmadi olaraq nəzarət edilir və limitlərə ildə bir dəfədən az olmayaraq yenidən baxılır.

Müştərilərlə iş üzrə kredit mütəxəssisləri tərəfindən yaradılmış kredit ərizələri kredit limitinin təsdiqlənməsi üçün müvafiq kredit komitəsinə təqdim edilir. Kredit riski, həmçinin hüquqi və fiziki şəxslərin təminat və zəmanətlərini almaqla idarə olunur. Kredit riskinin monitorinqi məqsədləri üçün kredit departamentinin mütəxəssisləri tərəfindən müntəzəm olaraq müştərilərin fəaliyyəti və maliyyə göstəricilərinin təhlili əsasında hesabatlar hazırlanır. Ödəmə qabiliyyəti aşağı olan müştərilər ilə bağlı əhəmiyyətli risklər haqqında məlumat rəhbərliyə təqdim olunur və onun tərəfindən təhlil edilir.

Kredit riskinin təsnifatı sistemi

Kredit riskinin qiymətləndirilməsi və kredit riskinin səviyyəsinə görə maliyyə alətlərinin təsnifləşdirilməsi məqsədilə Cəmiyyət iki yanaşmadan: daxili risk əsaslı reytinq sistemindən (IRB) və beynəlxalq reytinq agentlikləri (Standard & Poor's - "S&P", Fitch, Moody's) tərəfindən müəyyənləşdirilən xarici kredit reytinqi sistemindən istifadə edir. Daxili və xarici kredit reytinqləri və müəyyən edilmiş defolt ehtimalı intervalları aşağıdakı cədvəldə göstərilir: